QOY ƏDALƏT ZƏFƏR ÇALSIN!



*"SƏS" qəzeti mənim üçün ən əziz qəzetdir*

# SƏS

*Qəzet 1991-ci il yanvarın 11-dən çıxır*

№ 111 (5831) **22 iyun** 2019-cu il. "Əlincə" Azərbaycan Xeyriyyə Cəmiyyətinin orqanı. **Qiymәti 40 qəpik**

# Dövlət siyasətinin mərkəzində vətəndaş amili dayanır



Səh 2

8

**XİN: "Növbəti görüş üçün razılıq əldə edilib"**



4

**Əli Əhmədov: "Azərbaycan qadınları sahibkarlığın inkişafına da öz töhfələrini verir"**



3

**"Dövlətçilik tariximiz-də ilk dəfə olaraq əməkhaqqı bir ildə iki dəfə artıb"**



# Dövlət siyasətinin mərkəzində vətəndaş amili dayanır





## Rəcəb Tayyib Ərdoğan Prezident İlham Əliyevə zəng edib



İyunun 21-də Türkiyə Respublikasının prezidenti Rəcəb Tayyib Ərdoğan Azərbaycan Respublikasının prezidenti İlham Əliyevə telefonla zəng etmişdir. Bu barədə Trend-ə Azərbaycan Prezidentinin Mətbuat Xidmətindən məlumat verilib. Dövlət başçıları Azərbaycanla Türkiyə arasında dostluq və qardaşlıq münasibətlərinin bütün sahələrdə uğurlu inkişafından məmnunluq bildirmiş, əlaqələrimizin bundan sonra da möhkəmlənəcəyinə əminliklərini ifadə etmişlər. Azərbaycan və Türkiyə Prezidentləri ikitərəfli münasibətlərimizin perspektivlərini və qarşılıqlı maraq doğuran məsələləri müzakirə etmişlər.

Azərbaycan Prezidenti İlham Əliyevin Sərəncamı ilə minimum əməkhaqqının bu il artıq ikinci dəfə artırılması, sözün əsl mənasında, təqdirəlayiqdir və bu, ölkə başçısının Azərbaycan vətəndaşlarına diqqət və qayğısının bariz nümunəsidir. Bu, eyni zamanda, onun göstəricisidir ki, dövlət siyasəti ölkə vətəndaşlarının rifah halının yüksəldilməsinə xidmət edir və bu siyasətin mərkəzində vətəndaş amili dayanır.

Bu il artım birinci dəfə "Minimum aylıq əməkhaqqının artırılması haqqında" Azərbaycan Respublikası Prezidentinin 8 fevral 2019-cu il tarixli Sərəncamına əsasən, reallaşdırıldı. Bu artıma görə, martın 1-dən minimum əməkhaqqı səviyyəsi 38,4% yüksəldi. Nəticədə isə, minimum əməkhaqqının məbləği 180 manat təşkil etdi. Bu göstəricinin özü, sıradan bir nəticə deyildi və qeyd etmək, xüsusilə, yerinə düşərdi ki, belə bir artımla ölkəmizdə ilk dəfə minimum əməkhaqqı məbləği yaşayış minimumu səviyyəsi ilə bərabərləşdirildi.

Çox sevindirici haldır ki, artıq cari ilin birinci yarısında əməkhaqları ikinci dəfə artırıldı və ölkə başçısı İlham Əliyevin bu barədə Sərəncamı vətəndaşlar tərəfindən yüksək qiymətləndirilir. Çünki bu Sərəncam ölkə vətəndaşlarının rifah halının və yaşayış şəraitinin daha da yaxşılaşması deməkdir. Bu isə, öz növbəsində, hər bir vətəndaşın ayrı-ayrılıqda daha yaxşı, daha üstün yaşayış şəraitinin təminatı və imkanlarının artması anlamına gəlir ki, bütün bunlar vətəndaşlar tərəfindən yüksək qiymətləndirilməyə bilməz. Hər bir Azərbaycan vətəndaşı dövlət başçısının diqqət və qayğısı ilə əhatə olunduğunu çox yaxşı başa düşür və məhz bu baxımdan da, öz rəhbərini daim dəstəkləyir.

Azərbaycan Respublikası Prezidentinin "Minimum aylıq əməkhaqqının artırılması haqqında" 18 iyun 2019-cu il tarixli Sərəncamına əsasən, cari il 1 sentyabr tarixindən minimal maaş məbləği 250 manat təşkil edəcək. Bu rəqəm, eyni zamanda, 38,8 faiz artım deməkdir. Yəni təqribən 40 faizə qədər artım heç də kiçik göstərici deyil və bu artım vətəndaşların yaşayış səviyyəsinə əhəmiyyətli dərəcədə müsbət təsirini göstərəcək.

Minimum aylıq əməkhaqqı dedikdə, nə başa düşülür və mahiyyəti nədən ibarətdir? Ümumiyyətlə, minimum əməkhaqqı və onun artırılması vətəndaşlara nə kimi imkanlar vəd edir? Bu mexanizmin üstünlüyü nədir və niyə ölkəmizdə bu mexanizmdən istifadəyə üstünlük verilir? Xatırladaq ki, minimum aylıq əməkhaqqı işçinin əməyinə görə verilən ən aşağı ödəniş səviyyəsidir. Bu səviyyənin, yəni minimum aylıq əməkhaqqının artırılması yalnız Prezident Sərəncamı ilə reallaşdırılır. Bu mexanizmin üstün cəhəti, ondan ibarətdir ki, bütün ölkə vətəndaşlarının, ümumilikdə, bütün sektorlarda çalışan insanların əməkhaqqı ödənişlərini bu mexanizm vasitəsilə tənzimləmək mümkündür. Ödənişlərin artımını həyata keçirmək üçün də bu mexanizmin rolu əvəzsizdir.

"Niyə bu mexanizmin rolu əvəzsizdir" sualı bir çoxlarını düşündürə bilər. "Bütün dünya ölkələrində də bu mexanizm tətbiq olunurmu" kimi suallar da ağla gəlir. Məsələnin mahiyyətini düşündükcə, bu mexanizmin üstün və əvəzsiz olduğu qənaətinə gəlmək çətin deyil. Təsəvvür edək ki, Prezident Sərəncam imzalayır və konkret bir sahədə, yaxud konkret bir sektorda əməkhaqları bu Sərəncamın tələbləri ilə artır, amma digər sahələr və sektorlara bu şamil edilmir. Bu isə, o deməkdir ki, artımdan bütün ölkə vətəndaşları yararlana bilmir. Bir növ cəmiyyətdə ayrı-seçkilik yaranır və vətəndaşlara sanki fərq qoyulur. Minimum əməkhaqqının tətbiqi, məhz bu ayrı-seçkiliyin qarşısını alan, fərq qoyulmasını aradan qaldıran ən unikal mexanizmdir. Yeri gəlmişkən, qeyd edək ki, inkişaf etmiş ölkələrdə də yalnız gündəlik və saatlıq əməkhaqqı ödənişi üzrə minimal hədd sistemi mövcuddur. Yəni hazırda minimum əməkhaqqı mexanizmi heç də bütün dünyada tətbiq olunmur və bunun Azərbaycanda tətbiqi dövlət siyasətinin mərkəzində vətəndaş amili dayandığını isbatlayır. Eyni zamanda, mütəmadi olaraq, əməkhaqqı minimumunun artırılması isə, ölkə başçısının vətəndaşlara diqqət və qayğısını təsdiq edir.

Artım dinamikasına nəzər saldıqda, görürük ki, 2006-cı ilin oktyabrından bu vaxta qədər minimum əməkhaqqı 30 manatdan 250 manata qaldırılıb. Bu isə, o deməkdir ki, həmin müddət ərzində, əməkhaqqı minimumu səkkiz dəfə artıb. Əlalxüsus, son dövrün artımlarının daha böyük olduğu da bir reallıqdır. Nəzərə alsaq ki, ötən ilin yanvar ayına qədər minimum əməkhaqqı 116 manat olub, deməli, bir il yarımda bu səviyyənin 250 manata çatması, iki dəfədən də bir qədər çox artım deməkdir.

Daha bir diqqətçəkən və təqdirəlayiq məqam isə, minimum əməkhaqqının yaşayış minimumu səviyyəsi ilə tarazlaşması və hətta həmin səviyyəni ötüb keçməsidir. Nəzərə almaq lazımdır ki, minimum əməkhaqqı, ilk dəfə olaraq, bu ilin əvvəlində yaşayış minimumu ilə bərabərləşib. Bu fakt özü, xüsusilə, diqqətçəkən bir məqamdır və artıq minimum məbləğin də vətəndaşların yaşayış minimumunu təmin edəcək həddə çatması, ölkə vətəndaşlarının tam təminatı deməkdir. Bu ilin əvvəlində yaşayış minimumu həddinə çatdırılan minimum əməkhaqqının cəmi 4 ay sonra bu səviyyəni də ötüb keçməsi heç də sıradan bir hadisə deyil və təminatın daha yüksək səviyyədə olduğunun təsdiqidir. Sözsüz ki, vətəndaşların təminatının arxasında Azərbaycan dövləti, onun Prezidenti dayanır və ölkə vətəndaşları bundan çox razıdırlar. Çünki dövlətin və dövlət başçısının diqqət və qayğısı, hər zaman olduğu kimi, indi daha çox hiss edirlər.

**İnam HACIYEV**

# Nazirlər Kabinetində Dayanıqlı İnkişaf üzrə Milli Əlaqələndirmə Şurasının 8-ci iclası keçirilib



***İyunun 21-də Nazirlər Kabinetində Dayanıqlı İnkişaf üzrə Milli Əlaqələndirmə Şurasının səkkizinci iclası keçirilib.***

AZƏRTAC xəbər verir ki, Baş Nazirin müavini, Dayanıqlı İnkişaf üzrə Milli Əlaqələndirmə Şurasının sədri Əli Əhmədov iclasın gündəliyində duran məsələlərdən danışıb. O, iclasın əsas məqsədinin BMT-nin Yüksək Səviyyəli Siyasi Forumuna təqdim olunacaq ikinci Könüllü Milli Hesabatın təqdimatı və təsdiq edilməsi, həmçinin Dayanıqlı İnkişaf üzrə Milli Əlaqələndirmə Şurasının fəaliyyətinin səmərəli təşkili məqsədilə dövlət orqanlarının nümayəndələrindən ibarət işçi qruplarının tərkibinə yeni qurumların nümayəndələrinin daxil edilməsi məsələləri olduğunu deyib.

İkinci Könüllü Milli Hesabatın təqdimatının hazırlanması barədə məlumat verən Baş Nazirin müavini bildirib ki, Azərbaycan BMT-yə dayanıqlı inkişaf üzrə ikinci hesabat verən 14 ölkədən biri olacaq. Azərbaycanın sürətlə dəyişən gənc bir ölkə kimi bütün nailiyyətləri, eləcə də ölkəmizdə insan amilinin inkişaf etdirilməsi ilə bilavasitə əlaqədar olan məsələlər bu hesabatda öz əksini tapıb. Sənəddə Prezident İlham Əliyevin təşəbbüsü ilə Azərbaycanda sosial sahədə həyata keçirilən islahatlar, ölkə vətəndaşlarının sosial rifahının artımı üçün görülən tədbirlər geniş qeyd olunub. Sənədin yüksək peşəkarlıqla hazırlandığını deyən Baş Nazirin müavini bu sahədə Dayanıqlı İnkişaf üzrə Milli Əlaqələndirmə Şurasının tərkibində yaradılan işçi qruplarının fəaliyyətini də təqdirəlayiq qiymətləndirib.

Sonra gündəlikdəki hər iki məsələ ilə bağlı Dayanıqlı İnkişaf üzrə Milli Əlaqələndirmə Şurasının katibi Hüseyn Hüseynov təqdimat edib. Təqdimatdan sonra Şura üzvlərinin çıxışları olub.

İclasda Milli Əlaqələndirmə Şurasının fəaliyyətə başladığı dövrdən sonra kifayət qədər işlərin görüldüyü və qarşıya qoyulan mühüm vəzifələrin yerinə yetirildiyi bildirilib.

Daha sonda ikinci Könüllü Milli Hesabat, həmçinin Şuranın dövlət orqanlarının nümayəndələrindən ibarət işçi qruplarının tərkibinə Azərbaycan Respublikası Sahibkarlar (İşəgötürənlər) Təşkilatları Milli Konfederasiyası və Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının nümayəndələrinin daxil edilməsi məsələsi Şura tərəfindən təsdiqlənib.

# Vüqar Gülməmmədov: İmzalanan sərəncamlar ölkə əhalisinin sosial rifahının yüksəldilməsinə yönəlib



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tərəfindən əhalinin sosial rifahının yaxşılaşdırılması üçün inqilabi addımlar atılır. Bu ili sosial müdafiə ili kimi də dəyərləndirmək olar. İmzalanan sərəncamlar cəmiyyətin həssas təbəqəsi ilə yanaşı, ümumilikdə ölkə əhalisinin sosial rifahının yüksəldilməsinə yönəlib. AZƏRTAC xəbər verir ki, bu sözləri Hesablama Palatasının sədri Vüqar Gülməmmədov Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin iclasında deyib. V.Gülməmmədov qeyd edib ki, Dövlət Sosial Müdafiə Fondunun büdcəsi 2019-cu ildə 200 milyon manat artırılır. Bu artım nəticəsində Fondun dövlət büdcəsindən asılılığının 38,3 faizdən 32,8 faizə düşməsi gözlənilir.

# "Dövlətçilik tariximizdə ilk dəfə olaraq əməkhaqqı bir ildə iki dəfə artıb"



***Prezident İlham Əliyevin ölkədə sosial rifahın yüksəldilməsi üçün imzaladığı ikinci sosial islahatlar paketi miqyasına görə olduqca genişdir. Həyata keçirilən sosialyönümlü siyasət nəticəsində ölkəmizin iqtisadi potensialı artdıqca vətəndaşların həyat şəraiti yaxşılaşır, rifahı daha da yüksəlir. İkinci sosial paket əhaliyə gəlirlərini artırmağa şərait yaradacaq.***

AZƏRTAC xəbər verir ki, Milli Məclisin deputatı Musa Quliyev minimum əməkhaqqının artırılması barədə deyib: "Ayrı-ayrı vaxtlarda ölkəmizdə minimum əməkhaqqı qaldırılıb. Lakin dövlətçilik tarixində ilk dəfə olaraq minimum əməkhaqqı bir ilin ərzində iki dəfədən çox artırılıb. Prezidentin Sərəncamından sonra minimum əməkhaqqının 250 manata çatdırılması onun alıcılıq qabiliyyətinə görə MDB məkanında ikinci yerə yüksəlməsinə səbəb olub. Bütövlükdə həmin sərəncamlar 2 milyondan çox vətəndaşın sosial rifahının yaxşılaşdırılmasına xidmət edəcək".

O, daha sonra deyib: "Orta təbəqə bütün dünyada ictimai-siyasi sabitliyin buferi sayılır. Hansı dövlətdə orta təbəqə böyükdürsə, orada uzun müddət sabitlik olur, narazılıq baş vermir, sosial ədalət daha çox təmin edilir. Qütbləşmə çox olanda isə istər iqtisadi, istərsə də sosial-siyasi böhranlar baş verir. Ölkə Prezidentinin son Sərəncamında minimum əməkhaqqının 250 manata qaldırılması əsasən az əməkhaqqı alan və orta səviyyədən aşağı yaşayanların sosial rifahının yaxşılaşdırılmasına hədəflənib. Minimum əməkhaqqının yüksəlməsi ilə orta təbəqənin sahəsi genişlənir və bu, sosial harmoniyanın, sosial ədalətin bariz şəkildə təmin olunmasına gətirib çıxarır".

"Son Sərəncamlardan sonra Azərbaycan dövlətçilik tarixində ilk dəfə olaraq minimum əməkhaqqı yaşayış minimumunu üstələdi və ondan yuxarı qalxdı", - deyə deputat fikrinə yekun vurub.



## Milli Məclisin sədri Oqtay Əsədov II Avropa Oyunlarında boksçumuzun qarşılaşmasına baxıb

İyunun 21-də ikinci Avropa Oyunlarının birinci günündə kişi boksçuların yarışları start götürüb. AZƏRTAC xəbər verir ki, boksçularımızdan ilk olaraq Tayfur Əliyev (56 kq) mübarizəyə başlayıb. O, onaltıdabir finalda bolqarıstanlı Boyan Asenova 3:2 hesabı ilə qalib gəlib. Azərbaycan Respublikası Milli Məclisinin sədri Oqtay Əsədov, Gənclər və İdman naziri Azad Rəhimov və nümayəndə heyətimizin üzvləri boksçumuzun qarşılaşmasına baxıblar. Səkkizdəbir finalda Tayfur Əliyevin rəqibi ukraynalı Mikola Butsenko olacaq. Həmin qarşılaşma iyunun 24-də keçiriləcək.

Xatırladaq ki, Oyunların birinci günündə rinqə çıxacaq digər iki boksçumuz Rahil Məmmədov (91 kq) və Məhəmməd Abdullayev (+91 kq) da Bolqarıstan idmançıları ilə qarşılaşacaqlar. R.Məmmədovun rəqibi Radoslav Panteleyev, M.Abdullayevin rəqibi isə Petar Belberov olacaqlar.

## Moskvada SSRİ Xalq rəssamı Tahir Salahovun sərgisi açılıb



Moskvada, Rusiya Xarici İşlər Nazirliyinin qəbul evində Azərbaycanın və Rusiyanın tanınmış rəssamı, Rusiya Rəssamlıq Akademiyasının vitse-prezidenti, SSRİ Xalq rəssamı Tahir Salahovun sərgisi açılıb.

AZƏRTAC xəbər verir ki, sərginin açılış mərasimində RF xarici işlər naziri Sergey Lavrov çıxış edib. Nazir qeyd edib ki, Tahir Salahovun fəxri adları və təltifləri çoxdur, lakin onun ən böyük mükafatı xalqın sevgisidir. S.Lavrov deyib: "Tahir Teymuroviç, öz işlərinizlə bizi sevindirməkdə davam etdiyinizə görə Sizə çox minnətdarıq. Əminəm ki, bu sərgi bu gün burada iştirak edənlər arasında çox populyar olacaq. Ümidvarıq ki, bu gün buraya gələ bilməyən, lakin bu işləri görmək arzusunda olan insanların hamısı üçün bu ekspozisiyanı davam etdirəcəyik. Sizə yaradıcılıq uğurları, cansağlığı və həmişə sənətkar kimi qalmağınızı arzu edirəm".

Yaradıcılığına göstərilən diqqətə görə təşəkkürünü bildirən Tahir Salahov onun və qeyd edib ki, Bakıda "Expo Mərkəz"də keçirilən sərgi zamanı Rusiyanın xarici işlər naziri Sergey Lavrov onu RF XİN-in ordeni ilə təltif edib və Moskvada onun işlərinin sərgisinin keçirilməsini təklif edib.

Tahir Salahov deyib: "Sergey Viktoroviç sözünün üstündə durdu və Rusiyanın bu incəsənət və mədəniyyət məbədini, diplomatiya, həmrəylik və birlik məbədini, sülh, dostluq, səmimiyyət və həmrəylik məsələlərinin həll edilmiş olduğu və bu gün də həll edildiyi tarixi binanı mənim sərgim üçün təqdim edib". Rəssam qeyd edib ki, RF XİN-in malikanəsində Qara Qarayev, Şostakoviç, Rıbak, Soljenitsın, Pikasso, Rauşenberq, Boris Yefimov, Salvador Dali kimi şəxsiyyətlərin portretləri, xalça texnikasında çəkilmiş rəsm əsərləri təqdim edilir. Sərginin açılışında Azərbaycanın Rusiyadakı səfiri Polad Bülbüloğlu, RF Prezidentinin beynəlxalq mədəni əməkdaşlıq üzrə xüsusi nümayəndəsi Mixail Şvıdkoy, Dövlət Tretyakov Qalereyasının baş direktoru Zelfira Trequlova, RF XİN-in nümayəndələri, ictimai və siyasi xadimlər iştirak ediblər.

# Əli Əhmədov: "Azərbaycan qadınları sahibkarlığın inkişafına da öz töhfələrini verir"

## *Bakıda "Qadın sahibkarlığının inkişafı: təcrübə, imkanlar və nailiyyətlər" mövzusunda beynəlxalq forum keçirilib*





***İyunun 21-də Bakıda "Qadın sahibkarlığının inkişafı: təcrübə, imkanlar və nailiyyətlər" mövzusunda beynəlxalq forum keçirilib. AZƏRTAC xəbər verir ki, dövlət himninin səsləndirilməsindən sonra tədbirdə sahibkar qadınların fəaliyyətinə həsr edilən videoçarx nümayiş olunub. Azərbaycan Respublikası Baş Nazirinin müavini Əli Əhmədov forumda çıxış edərək bildirib ki, Azərbaycan qadınları ictimai-siyasi həyatda olduğu kimi, sahibkarlığın inkişafına da öz töhfələrini verir. Ölkəmizə gələn qonaqlar iqtisadiyyatımızın inkişafına dair geniş məlumatlara sahibdirlər. Azərbaycanın böyük iqtisadi göstəricilərə malik olduğunu deyən Ə.Əhmədov qeyd edib ki, ölkəmiz dünyada və regionda iri layihələrin müəllifidir.***






Baş Nazirin müavini bildirib ki, iqtisadiyyatın inkişafına təsir edən amillərdən biri də kiçik və orta sahibkarlığın inkişafıdır. Bunun üçün hökumət tərəfindən geniş imkan yaradılıb. Hökumət qadın sahibkarlığının inkişaf etdirilməsinə də daim dəstək göstərir. Uşaq bağçalarının, istehsal müəssisələrinin sayı artırılır. Bu gün qadınlar öz güclərini orta və kiçik sahibkarlıq sahəsində göstərirlər. Bundan sonra qadınlarımız iri sahibkarlıq sahəsində də öz bacarıqlarını nümayiş etdirməlidirlər.

Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri Hicran Hüseynova Prezident İlham Əliyevin və birinci xanım Mehriban Əliyevanın Azərbaycanda qadın sahibkarlığının inkişafına göstərdikləri dəstəkdən danışıb. Qadın sahibkarlığının inkişafı istiqamətində görülən işləri qeyd edən komitə sədri əlavə edib ki, bu işə başlananda cəmi 4 faiz sahibkar qadın var idi. Bu gün bu statistika artıb. Bunun üçün qanunvericilik bazası yaradılıb. Qadın sahibkarlığının inkişafı üçün resurs mərkəzləri yaradılıb. Bu mərkəzlərin fəaliyyətə başlaması üçün BMT və digər beynəlxalq təşkilatlar tərəfindən dəstək verilib. Bundan başqa, beynəlxalq konfranslar keçirilib ki, bu da xarici təcrübənin ölkəmizdə tətbiqinə şərait yaradıb. Layihələrə məcburi köçkün xanımlar da cəlb olunublar.

BMT-nin Azərbaycandakı rezident əlaqələndiricisi Qulam İshaqzai qadın sahibkarlığının inkişaf etdirilməsinin önəmindən söhbət açıb. O bildirib ki, bir ölkədə qadın sahibkarlığının inkişafı həmin ölkədə ümumi daxili məhsulun artmasına kömək edə bilər. Bu, eyni zamanda, gender bərabərliyinin də inkişafına yol açar. Azərbaycanda qadınların fəaliyyəti üçün lazımi qanunverici baza yaradılıb. Ölkədə sahibkar qadınların sayının artırılması üçün əlverişli şərait mövcuddur. Azərbaycanda lider qadınlar çoxluq təşkil edir.

BMT-nin İnkişaf Proqramının rezident nümayəndəsi Alessandro Frakassetti qeyd edib ki, qadın sahibkarlar XXI əsrin böyük qüvvəsidir. Müasir dünyada qadınlar iqtisadiyyatın müxtəlif sahələrində mühüm yerlərə sahib olur. BMT qadınların səlahiyyətləndirilməsində mühüm layihələr həyata keçirir. Azərbaycan hökuməti də bu işdə BMT-yə böyük dəstək nümayiş etdirir. Ölkədə qadın resurs mərkəzlərinin yaradılması təqdirəlayiqdir.

İnsan Hüquqları üzrə Müvəkkil (Ombudsman) Elmira Süleymanova Şərqdə ilk dəfə qadınlara seçib-seçilmək hüququnun 1918-ci ildə Azərbaycanda verildiyini xatırladıb. Azərbaycanda qadınlara yaradılan imkanlar hələ həmin vaxtlardan start götürüb. Bu gün Azərbaycan hökuməti tərəfindən qadınlara siyasət və iqtisadiyyat sahələrində geniş imkanlar yaradılıb. Qadınlar artıq turizm, sənaye və aqrar sahələrdə böyük nailiyyətlər qazanıblar. Qadınların rahat şəkildə fəaliyyət göstərmələri üçün Azərbaycan Hökuməti onlar üçün zəngin qanunvericilik bazası yaradıb.

İqtisadiyyat nazirinin müavini Sevinc Həsənova qeyd edib ki, Azərbaycan müstəqillik əldə etdikdən sonra bazar iqtisadiyyatı prinsiplərinə uyğun iqtisadiyyat formalaşdırıb. Azərbaycan Prezidenti tərəfindən sahibkarlara münbit biznes mühiti yaradılıb. Bununla yanaşı, ölkədə orta və kiçik sahibkarlığın inkişafı üçün imkanlar yaradılıb. Dünya Bankının "Doing Business" hesabatında Azərbaycan dünyanın ən çox islahat aparan ölkəsi elan olunub. Ölkəmizdə sahibkar qadınlara münbit şərait yaradılıb. Bu gün ölkədə qadın sahibkarlara aid müxtəlif istehsal sahələri fəaliyyət göstərir. Qadın sahibkarların fəaliyyətlərinin genişləndirilməsi üçün hökumət onlara güzəştli kreditlər verib.

Rusiyanın Həştərxan vilayət Dumasının deputatı İrina Brıntseva qadın sahibkarların iqtisadiyyatdakı yerindən danışıb. Rusiyada qadın sahibkarların fəaliyyətindən danışan deputat qeyd edib ki, dövlətin dəstəyi ilə xanım iş adamlarının sayı çoxluq təşkil edir. Rusiyalı deputat vurğulayıb ki, Azərbaycanda da bu sahə inkişaf edir. Ölkədə böyük nailiyyətlər əldə etmiş sahibkar qadınların sayı kifayət qədərdir. Daha sonra fəal sahibkar qadınlar mükafatlandırılıb. Forum müxtəlif mövzular üzrə panellərlə davam edib.

www.sesqazeti.az
facebook Ses Media Holding
səs
22 iyun 2019-cu il


# Naxçıvan şəhərində “Saat Meydanı” turistik istirahət mərkəzi fəaliyyətə başlayıb





***İyunun 21-də Naxçıvan şəhərində “Saat Meydanı” turistik istirahət mərkəzi istifadəyə verilib. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov açılışı bildirən lenti kəsib.***



Naxçıvan Şəhər İcra Hakimiyyətinin başçısı Mirsənani Seyidov çıxış edərək deyib ki, son illər istifadəyə verilən yeni inzibati və yaşayış binaları, xidmət sahələri, salınan park və küçələr qədim Naxçıvan şəhərinin simasını tamamilə dəyişib. Əhalinin yaşayışı, məşğulluğu və istirahətinin səmərəli təşkili istiqamətində ardıcıl tədbirlər görülüb, yeni istehsal və xidmət sahələri fəaliyyətə başlayıb. Bu il də Naxçıvan şəhərində quruculuq işləri davam etdirilir, yeni yaşayış kompleksi və inzibati binalar, xidmət sahələri tikilir, parklar salınır, mövcud yaşayış binaları yenidən qurulur. İstifadəyə verilən “Saat Meydanı” da bu sahədə görülən işlərin davamıdır. Mirsənani Seyidov “Saat Meydanı”nın yeni iş yerlərinin açılması, sakinlərin və turistlərin rahatlığının təmin olunması ilə yanaşı, həm də Naxçıvan şəhərinin arxitektura quruluşunu zənginləşdirdiyini bildirib, bütün bunlara görə Naxçıvan şəhər ictimaiyyəti adından Ali Məclisin Sədrinə minnətdarlıq edib.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov Naxçıvan şəhərində “Saat Meydanı” turistik istirahət mərkəzinin istifadəyə verilməsi münasibətilə tədbir iştirakçılarını təbrik edərək deyib: Hər bir ölkənin həyatında turizm xüsusi yer tutur. Müasir dövrdə ölkələr turizmin inkişafında, daha çox turist cəlb etməklə ümumi inkişafın təmin olunmasında maraqlıdırlar. Naxçıvan Muxtar Respublikasında da turizmin inkişafı diqqət mərkəzindədir. Tarixi və dini turizmin, ekoturizmin, dağ turizminin, mədəni və sağlamlıq turizminin inkişafı sahəsində mühüm işlər görülmüşdür. Artıq Naxçıvan həm də turizm mərkəzinə çevrilmişdir. Bu il Londonda nəşr olunan “Wanderlust” jurnalında da Naxçıvan Muxtar Respublikası dünyanın ən yaxşı 50 turizm mərkəzlərindən biri kimi qeyd olunmuşdur.

Ali Məclisin Sədri deyib: Bu gün muxtar respublikada turizmin bütün sahələri üzrə qonaqlar qəbul edilir. Turistlərin istirahəti səmərəli təşkil olunur, onlar yaradılan şəraitdən istifadə edərək Naxçıvan, ümumilikdə isə Azərbaycan haqqında xoş fikirlərini bildirirlər. Turizmin inkişafında ən vacib məsələlərdən biri də xidmət sahəsidir. Çünki xidmət sahəsi olmadan turizmi inkişaf etdirmək mümkün deyil. Bu gün istifadəyə verilən “Saat Meydanı” da yeni xidmət sahəsi kimi turizmin inkişafına böyük dəstək olacaqdır. Həmçinin yeni fəaliyyətə başlayan turistik məkanda yüzdən artıq iş yeri açılmış, gənclər işlə təmin olunmuşlar. Bu da məşğulluğun təmin olunmasına töhfə verir.

Qeyd olunub ki, xidmət sahələrində dünyanın müxtəlif ölkələrinin mətbəxləri, eyni zamanda, milli mətbəx nümunələri turistlərə və sakinlərə təqdim olunacaqdır. Müasir formada qurulan meydanda isə gənclərin asudə vaxtları səmərəli təşkil olunacaq, müxtəlif tədbirlər keçiriləcəkdir. Ona görə də kollektiv yaradılan şəraitdən səmərəli istifadə etməli, turistlərə və sakinlərə nümunəvi xidmət göstərilməlidir. Çünki xidmətin düzgün təşkili əlavə turist cəlbinə və yeni xidmət sahələrinin yaranmasına şərait yaradacaqdır.

Ali Məclisin Sədri kollektivə işlərində uğurlar arzulayıb, əməyi olanlara təşəkkürünü bildirib və yaradılan şəraitlə tanış olub.

Bildirilib ki, klassik və milli memarlıq üslubunda inşa olunmuş “Saat Meydanı” ikimərtəbəli binadan, 21 metrlik saat qülləsindən və meydandan ibarətdir. İki girişi olan binada 5 dükan, uşaq əyləncə bölməsi, gənclər üçün intellektual oyun zalı, otel, 4 zaldan ibarət 125 yerlik kinoteatr, 4 restoran və 2 kafe yerləşir. Burada sakinlərə və turistlərə Naxçıvan, eləcə də Türkiyə, Çin, gürcü, yapon və ingilis mətbəxlərinin nümunələri təqdim olunur. Geyim dükanlarında dünya firmalarının məhsulları alıcılara təklif edilir.

Kinoteatrda “CinemaPlus” kinoteatrlar şəbəkəsi tərəfindən ən yeni dünya və yerli filmlər nümayiş olunacaqdır. 3D texnologiyası, rəqəmsal kinoproyektorlar, müasir işıq və səs sistemləri filmləri yüksək keyfiyyətdə təqdim etməyə imkan verəcəkdir.

Baxış zamanı ümummilli lider Heydər Əliyevin həyat və fəaliyyətindən bəhs edən film nümayiş olunub.

Ali Məclisin Sədri kinoteatrda milli mentalitetimizə uyğun filmlərin nümayiş olunması, gənclərin asudə vaxtlarının səmərəli təşkili və keyfiyyətli xidmət göstərilməsi barədə tapşırıqlar verib.

Oteldə 43 standart, 4 suit və 1 vip olmaqla 48 otaq vardır. Burada turistlərin rahatlığı üçün bütün lazımi şərait yaradılıb.

Meydanda konsert səhnəsi və fəvvarə qurulub. Saat qülləsində isə xidmət sahələri yaradılıb, kafe və mütaliə zalı istifadəyə verilib, kitablar qoyulub, “Oxunması zəruri olan kitablar”dan ibarət guşə yaradılıb. Bütün xidmət sahələri müasir soyutma, istilik, yanğından mühafizə və video-nəzarət sistemləri ilə təchiz olunub, ərazidə 100 yerlik dayanacaq yaradılıb, oturacaqlar qoyulub, dekorativ ağac və güllər əkilib.





# YAP-ın Mərkəzi Qərargahında partiyanın Nərimanov və Nizami rayon təşkilatlarının ərazi ilk partiya təşkilatları sədrlərinin iştirakı ilə müşavirə keçirilib



***İyunun 21-də Yeni Azərbaycan Partiyasının Mərkəzi Qərargahında partiyanın Nərimanov və Nizami rayon təşkilatlarının ərazi ilk partiya təşkilatları sədrlərinin iştirakı ilə müşavirə keçirilib.***

Müşavirədə çıxış edən Azərbaycan Respublikası Baş nazirinin müavini, YAP Sədrinin müavini - İcra katibi Əli Əhmədov ölkəmizin ictimai-siyasi, iqtisadi, sosial həyatında baş verən mühüm dəyişikliklər haqqında geniş məlumat verdi. Əli Əhmədov qeyd etdi ki, ictimai-siyasi həyatda sabitliyin möhkəmlənməsi ilə bərabər iqtisadi inkişaf uğurla davam etməkdədir və ümumi iqtisadi inkişafın artım tempi yüksəlir.

Baş nazirin müavini Prezident İlham Əliyevin insanların rifahının yüksəlməsi naminə atdığı addımların cəmiyyətimiz tərəfindən yüksək dəyərləndirildiyini diqqətə çatdırıb. Onun sözlərinə görə, Azərbaycanı daha firavan gələcək, vətəndaşı daha yüksək rifah gözləyir. Məqsədimiz bu gələcəyə doğru inamla və qətiyyətlə irəliləməkdir.

YAP Sədrinin müavini Əli Əhmədov vurğuladı ki, Azərbaycanın qazandığı möhtəşəm uğurlar hər bir vətəndaşımıza sevinc və qürur hissi bəxş edir. Lakin çox təəssüf ki, bu nailiyyətləri gözü götürməyən qüvvələr də vardır. Buna görə də hər bir Azərbaycan vətəndaşı, o cümlədən partiyamızın üzvləri həyata keçirilən dövlət siyasətinin uğurlarını daha geniş şəkildə təbliğ etməlidirlər.

YAP Sədrinin müavini-İcra katibi Əli Əhmədov həmçinin, partiya həyatı ilə bağlı müşavirə iştirakçılarına müvafiq tövsiyə və tapşırıqlarını vermişdir.





# Nəsiminin həyatı və yaradıcılığı "Ənəlhəqq" tamaşasında





***İyunun 20-də "Aktyor Evi"nin səhnəsində Yeni Azərbaycan Partiyası, Mədəniyyət Nazirliyi və Azərbaycan Teatr Xadimləri İttifaqının birgə təşkilatçılığı ilə böyük Azərbaycan şairi İmadəddin Nəsiminin anadan olmasının 650 illik yubileyinə həsr olunan tədbir keçirilib. Tədbir Yeni Azərbaycan Partiyası ilə Mədəniyyət Nazirliyinin "Azərbaycanın dövlətçilik ənənələrinin yaşadılması məqsədilə vətənpərvərlik və mədəni dəyərlərə hörmət hisslərinin gücləndirilməsinə dair 2019-2020-ci illər üzrə birgə Fəaliyyət Planı" və "Nəsimi ili" çərçivəsində təşkil edilib.***

Tədbiri Teatr Xadimləri İttifaqının sədr müavini, Xalq artisti Hacı İsmayılov açaraq Şərqin zəngin mədəni-mənəvi sərvətləri üzərində ucalmış və bədii söz sənətinin son dərəcə qiymətli incilərini yaratmış Nəsimi yaradıcılığından söhbət açıb.

Tədbirdə Milli Məclisin deputatı, YAP Səbail rayon təşkilatının sədri, professor Şəmsəddin Hacıyev, Mədəniyyət nazirinin birinci müavini Vaqif Əliyev çıxış edərək Prezident İlham Əliyevin müvafiq Sərəncamı ilə görkəmli Azərbaycan şairi və mütəfəkkiri İmadəddin Nəsiminin 650 illik yubileyi ilə əlaqədar 2019-cu ilin ölkəmizdə "Nəsimi ili" elan edilməsini mədəniyyətə, şeirə, sənətə göstərilən dövlət qayğısı kimi qiymətləndiriblər.

İmadəddin Nəsimi Azərbaycan xalqının ümumbəşər mədəniyyətinə bəxş etdiyi qüdrətli söz ustalarından biri olduğunu söyləyən natiqlər 2017-ci ilin may ayında Parisdə UNESCO-nun baş qərargahında şairin vəfatının 600 illiyinin, 2018-ci ildə Heydər Əliyev Fondunun təşkilatçılığı ilə Bakıda və Şamaxı şəhərlərində, habelə Moskvada Nəsimi, şeir, incəsənət, mənəviyyat Festivalının keçirilməsi və hazırda Prezident İlham Əliyevin müvafiq Sərəncamına əsasən, bu ilin "Nəsimi ili" elan edilməsini şairin yaradıcılığına göstərilən ehtiramın nəticəsi kimi dəyərləndiriblər.

Nəsimi irsinin təsir dairəsindən söz açan Milli Məclisin deputatı, akademik Rafael Hüseynov tarixə nəzər salaraq sovet dövründə Nəsiminin 600 illik yubileyi ərəfəsində görülən işlərdən danışıb. Azərbaycan ədəbiyyatşünaslarının tədqiqatlarını qeyd edən akademik həmin dövrdə Nəsimi yaradıcılığı ilə bağlı ölkəmizin mədəni mühitində bir çox işlərin görüldüyünü, şairin sözlərinə mahnılar bəstələndiyini xatırladıb. Vurğulayıb ki, Nəsimini sadə Azərbaycan insanına "Nəsimi" filmi tanıdıb.

Tədbirdə Xalq artisti Rasim Balayev ona böyük populyarlıq qazandıran "Nəsimi" filmindəki məşhur rolundan danışıb, böyük mütəfəkkir barədə öz fikirlərini bölüşüb.

Daha sonra YAP Səbail rayon Könüllülər Birliyinin incəsənət qrupu tərəfindən nəzmlə hazırlanan və Azərbaycan xalqının ədəbi və fəlsəfi fikir tarixində dərin iz qoymuş mütəfəkkir şair İmadəddin Nəsiminin həyatı, yaradıcılığı və ictimai-siyasi fəaliyyətinə həsr olunan "Ənəlhəqq" teatr tamaşası nümayiş olunub. Nəsimi fəlsəfəsi, onun ideologiyasının dünyəviliyi, o vaxtkı qəddar rejimə, tökülən qanlara, insanın öz həqiqi mənliyindən çıxıb vəhşiyə dönməsinə qarşı Nəsiminin üsyankarlığının əsas götürüldüyü, mürid və mürşid, despot şah və həqiqət tələb edən şair, xeyir və şər, aşiq və məşuq münasibətlərinin ifadə olunduğu "Ənəlhəqq" tamaşasının layihə rəhbəri Rəşad İmanov, ssenari müəllifləri Rəhman Mirzəlizadə və Fehruz Rzayev, quruluşçu rejissor Cavidan Kəsəmənlidir.

***Rəfiqə Kamalqızı***

# Uğurlu sosial islahatlar əhalinin rifahının yüksəldilməsinə hesablanıb

***"Sürətli sosial-iqtisadi inkişaf dövrünü yaşayan Azərbaycanın əldə etdiyi uğurlar, tərəqqi hər bir vətəndaşın həyatında hiss olunur və insanların rifah halı günü-gündən yaxşılaşır". Bu fikirləri "Səs" qəzetinə açıqlamasında Yeni Azərbaycan Partiyası Suraxanı rayon təşkilatının sədri Vüqar Seyidov bildirib.***



Qeyd edib ki, əhalinin maddi gəlirlərinin davamlı şəkildə çoxalması, əməkhaqqı və pensiyaların, eləcə də, büdcədən maliyyələşən insanlara ödənilən vəsaitlərin Azərbaycan Prezidenti İlham Əliyevin müvafiq sərəncamlarına əsasən, vaxtaşırı artırılması və bu qəbildən olan digər tədbirlər ölkədə sosial sferada vəziyyətin daha da yaxşılaşmasını xarakterizə edən mühüm amillərdir. Son bir ildə dövlət başçısı tərəfindən uğurlu sosial islahatların həyata keçirildiyini bildirən V.Seyidov bunun Prezident İlham Əliyevin siyasi fəaliyyətində, məhz insan, vətəndaş amilinin, ölkədə sosial rifah və sabitliyin təminatının əsas yer tutduğunu bir daha təsdiq etdiyini vurğulayıb. "Təkcə bu ilin ötən dövründə, Prezident İlham Əliyevin uğurlu sosial islahatlar paketi vətəndaşların rifahına ciddi dəstək olan inqilabi addımların atılmasına imkan verib" deyən rayon təşkilatının sədri dövlət başçısı İlham Əliyevin fevral ayında imzaladığı 8 Sərəncam və 4 Fərmanın sıravi vətəndaşın sosial vəziyyətinin yaxşılaşdırılması, aztəminatlı ailələrin, qaçqın və məcburi köçkünlərin, müharibə veteranlarının, şəhid ailələrinin və başqa kateqoriyadan olan insanların sosial müdafiəsinin gücləndirilməsinə hesablandığını və bu tədbirlərin sosial sahədə inqilabi dəyişikliklərin başladığını xarakterizə etdiyini bildirib: "Prezident İlham Əliyevin sosial islahatlar paketinin uğurlu nəticəsi 8 fevral 2019-cu il tarixli Sərəncamla ölkədə minimum əməkhaqqının 180 manata çatdırılması oldu. Minimum əməkhaqqının yaşayış minimumuna çatdırılmasına imkan verən bu artım, eyni zamanda, qeyri-rəsmi əmək münasibətlərinin də leqallaşdırılmasına müsbət təsirini göstərir. Prezidentin 19 fevral 2019-cu il tarixli Fərmanı isə istismarına icazə verilməmiş çoxmənzilli yaşayış binalarının sakinlərindən ibarət 350-400 min insanın mənafeyinin təmin olunmasına xidmət etməklə, Azərbaycanın sosialyönümlü dövlət siyasətinin əsasında humanizm prinsiplərinin dayandığının növbəti təsdiqi oldu. Beləliklə, ötən dövr ərzində, Prezident İlham Əliyevin sosial islahatlar paketi 3 milyon vətəndaşın rifahında əhəmiyyətli rol oynayan mühüm addımların atılmasına imkan verdi".

Prezident İlham Əliyevin "Minimum aylıq əməkhaqqının artırılması haqqında" 2019-cu il iyunun 18-də imzaladığı Sərəncamın respublikamızda əhalinin rifah halının yaxşılaşdırılması sahəsində 2019-cu ilin ilk aylarından atılan inqilabi addımların davamı olduğunu diqqətə çəkən V.Seyidov bu Sənədin ölkədə sosial rifahın yüksəldilməsinin Prezident İlham Əliyevin uğurlu sosial-iqtisadi siyasətinin prioritet istiqaməti olduğunu bir daha təsdiq etdiyini bildirdi: "Bu istiqamətdə cari il ərzində, artıq ikinci böyük sosial paketin reallaşdırmış oldu. Bütövlükdə, müəllimlərdən tutmuş hərbi qulluqçulara, özəl və dövlət sektorunda çalışanlara qədər 2 milyondan artıq vətəndaşın əməkhaqqının artması ilə nəticələnən sərəncamlar cəmiyyət tərəfindən sevinclə qarşılandı. Dövlət başçısının bu sərəncamları ölkədə yaşayış səviyyəsinin yüksəlməsinə birbaşa təsir edən qərardır".

Müasir Azərbaycan dövlətinin Qurucusu Heydər Əliyevin sosialyönümlü iqtisadi inkişaf strategiyasının Azərbaycan Prezidenti İlham Əliyev tərəfindən uğurla inkişaf etdirilməsi nəticəsində bu gün ölkəmizin sosial-iqtisadi tərəqqisi keyfiyyətcə yeni mərhələyə qədəm qoyub: "Son 16 ilin reallıqları bir daha göstərir ki, ölkəmizdə icra olunan islahatlar, həyata keçirilən dövlət proqramları bütün sahələrdə uğurların əldə olunması ilə nəticələnib. Aparılan uğurlu sosial-iqtisadi siyasət nəticəsində yoxsulluq və işsizlik səviyyəsi nəzərəçarpacaq dərəcədə azalıb, vətəndaşların maddi rifah halı yüksəlib, əhalinin bütün təbəqələri üçün bərabər sosial təminat sistemi təkmilləşdirilib, insan kapitalının və sosial infrastrukturun inkişafına nail olunub, sosial cəhətdən həssas əhali qruplarının sosial müdafiəsi gücləndirilib. Prezident İlham Əliyevin ölkənin sosial mənzərəsini dərindən dəyişdirən sərəncam və fərmanlar imzalaması, onu deməyə əsas verir ki, Azərbaycan hökumətinin bu sahədə həyata keçirdiyi islahatlardan sosial dəstəyə ehtiyacı olan bütün ölkə vətəndaşları faydalanır. Ölkəmizdə dövlətin iqtisadi siyasətinin sosialyönümlü olması, ölkə vətəndaşlarının sosial müdafiəsinin gücləndirilməsinə diqqətin, insan amilinə verilən yüksək dəyərin nümunəsidir. Dövlətin sosial siyasəti insanların tələbatını və maraqlarını ödəyərək, hər kəsdə fəal həyat mövqeyi formalaşdırır. Ayrı-ayrı vətəndaşlara və sosial qruplara yardım göstərilir. Xalqın rifahın təminatı, əhalinin sosial müdafiəsinin gücləndirilməsi istiqamətinə yönəlmiş strateji inkişaf proqramı öz nəticələrini verir. Ölkədə mövcud olan və yaradılan bütün yaşayış və xidmət infrastrukturu hər bir vətəndaşa xidmət edir. Prezident İlham Əliyevin Sərəncamı ilə icra olunan dövlət proqramları, həyata keçirilən islahatlar və s. əhalinin sosial rifahının yüksəlməsinə, gəlir əldə etmək imkanlarının genişləndirilməsinə, orta aylıq əməkhaqqının ilbəil yüksəlməsinə, nəticə etibarilə əhalinin həyat səviyyəsinin mütəmadi yaxşılaşmasına səbəb olmuşdur".

Son 16 ildə Prezident İlham Əliyevin rəhbərliyi ilə müstəqil Azərbaycan böyük inkişaf yolu keçmiş, insanların sosial yüksəlişi təmin olunmuşdur. Bazar iqtisadiyyatı şəraitində sosial ədalət prinsipinin gücləndirilməsi, mütərəqqi beynəlxalq təcrübə əsasında əhalinin bütün təbəqələri üçün bərabər və əlçatan sosial təminat mexanizmi yaradılıb və təkmilləşdirilib.

Azərbaycan Prezidenti İlham Əliyevin siyasəti və gərgin əməyi sayəsində ölkəmizdə, sözün əsl mənasında, sıçrayışlı sosial-iqtisadi inkişafa nail olunub. Azərbaycan bir-birindən əhəmiyyətli uğurlara imza atıb və dünyanın seçilən dövlətləri sırasında yer tutub.

***Zümrüd BAYRAMOVA***



# Qazaxıstan Sərhəd Xidmətinin nümayəndə heyəti "Sarbaz" sərhəd gözətçi gəmisi ilə Azərbaycana səfər edib



***Azərbaycan Respublikası Dövlət Sərhəd Xidməti (DSX) ilə Qazaxıstan Respublikası Milli Təhlükəsizlik Komitəsinin Sərhəd Xidməti arasında 2019-cu il üçün təsdiq edilmiş Tədbirlər Planına müvafiq olaraq, əməkdaşlıq əlaqələri uğurla davam etdirilir. DSX-nin mətbuat mərkəzindən AZƏRTAC-a bildiriblər ki, birgə əməkdaşlıq çərçivəsində iyunun 19-21-də Qazaxıstan Respublikasının Milli Təhlükəsizlik Komitəsi Sərhəd Xidmətinin Regional Sahil Mühafizəsinin idarə rəisi, polkovnik Alibek Kayupovun rəhbərlik etdiyi nümayəndə heyəti "Sarbaz" sərhəd gözətçi gəmisi ilə Azərbaycana dostluq səfəri edib.***

Səfər zamanı tərəflər arasında ikitərəfli əlaqələrin inkişafına dair fikir mübadiləsi aparılıb, Xəzər dənizində sərhəd təhlükəsizliyinin təmin edilməsi, birgə əməliyyat-profilaktik tədbirlərinin keçirilməsi, bioloji resursların qorunması, qanunsuz fəaliyyətlərə qarşı mübarizə sahəsində əməkdaşlığın genişləndirilməsi məsələləri müzakirə olunub.

Həmçinin səfər müddətində "Sərhədçi" İdman Olimpiya Mərkəzində Azərbaycan və Qazaxıstan Sahil mühafizələrinin əməkdaşları arasında futbol üzrə yoldaşlıq görüşü keçirilib, qarşılıqlı olaraq tərəflərin sərhəd gözətçi gəmiləri ziyarət edilib. Qonaqlar Bakının mədəni-tarixi abidələri, "İçərişəhər", "Qız qalası", "Atəşgah" və "Qala" muzeyləri ilə tanış olublar.

# "Jewish Journal" nəşri: "Qərbdəki yəhudi icması təqiblərə məruz qalır"

Amerikada çıxan "Jewish Journal" nəşrində Azərbaycan Dağ Yəhudiləri İcmasının rəhbəri Melih Yevdayev "Qərbdəki yəhudi icması təqiblərə məruz qalır" sərlövhəli məqaləsi dərc edilib.

AZƏRTAC xəbər verir ki, materialda yəhudilərin Qərbdə və digər ölkələrdə sıxışdırılmasından, ümumiyyətlə antisemitizmdən bəhs edilir. Müəllif yazır ki, Qərbdə yaşayan yəhudilər nasist ölüm düşərgələrindən azad ediləndən 74 il keçməsinə baxmayaraq, hələ də son onilliklərlə müqayisədə daha ağır vəziyyətdədirlər. Bu şokdoğurucu fakt cari ilin may ayında Təl-Əviv Universitetindəki Kantor Mərkəzi tərəfindən dərc edilmiş yeni məruzədə öz əksini tapıb. Antisemitizmlə bağlı zorakılıqdan bəhs olunan bu məruzədə göstərilir ki, 2018-ci ildə antisemit zorakılıq nəticəsində öldürülmüş yəhudilərin sayı əvvəlki onilliklərdə hər hansı il üzrə müvafiq göstəricidən çox olub.

Məruzədə Avropa müxtəlif ölkələrində, o cümlədən Almaniya, Belçika və Fransada yəhudilərə tolerant münasibətin olmaması və antisemitizm faktları göstərilir. Ermənistanda da antisemitizm ənənələrindən bəhs edilir. M.Yevdayev yazır ki, Ermənistanın hakimiyyət orqanları nasist kollaborasionist general Qaregin Njdeni milli qəhrəman elan edib və ona abidə ucaldıblar. Bundan əlavə, Yerevanda bir meydana və bir metro stansiyasına Njdenin adı verilib, Ermənistan məktəblərində Njdenin "irsi" şagirdlərə tədris edilir.

Vermaxtın bədnam "Erməni liqası"nın komandirlərindən biri olmuş Njde nasistlərlə əməkdaşlıq edib. Bu bölmə Krımda, Qafqazda və Fransanın cənubunda vuruşub. Törətdiyi hərbi cinayətlərə və nasistlərlə əməkdaşlıq etdiyinə görə Njde sovet məhkəməsi tərəfindən 25 il həbs cəzasına məhkum olunmuşdu. Njdenin nasistlərlə əməkdaşlığı kimi, onun "siyasi nəzəriyyələri" də iyrənc idi.


JEWISH JOURNAL
June 20, 2019

Jews in the West: An Embattled Community

BY MILIKH YEVDAYEV | JUN 20, 2019 | BLOGS

Seventy four years after the Nazi death camps were liberated, Jews in the West are more embattled than they have been in decades. This is the shocking finding of a new report on anti-Semitic violence released in May by the Kantor Center at Tel Aviv University. Commenting on the report, the President of the European Jewish Congress, Moshe Kantor, said that among Jews in many European countries there is a "sense of emergency," with concerns about both personal safety and their place in society. According to the report, more Jews were killed in anti-

LATEST STORIES

Israeli President on BDS: 'Nothing Progressive About Anti-Semitism'

Israel Approves $40.4 Million to Help Ethiopian Students Succeed in Higher Education

Robert Kraft Announces Foundation to Combat Anti-Semitism at Genesis Prize Ceremony

Roger Waters 'Deeply Moved' By Gift from Venezuela's Maduro

Nasist həmkarlarının ari irqinin üstünlüyü barədə nəzəriyyələrini təkrarlayan Njde insanları həqiqi millətçilərə və qarışıq qanlı adamlara bölürdü. Müəllif məqalənin sonunda yazır ki, kütləvi qətllər, çoxsaylı insanların qatillərinə heykəllər qoyulması, Hitlerin ideologiyasına oxşar siyasi nəzəriyyələr, hədə-qorxu sivil ölkələrə və sivil insanlara xas olan əlamətlər deyil.

# XİN: "Növbəti görüş üçün razılıq əldə edilib"

***Azərbaycan Respublikası Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsi Azərbaycan və Ermənistan xarici işlər nazirlərinin Vaşinqton görüşünün nəticələri barədə açıqlama verib. SİA xəbər verir ki, açıqlamada Azərbaycan tərəfinin bundan öncə Paris və Moskvada eyni formatda keçirilmiş görüşlərin davamı olaraq, bu il iyunun 20-də Vaşinqtonda Azərbaycan və Ermənistan xarici işlər nazirlərinin görüşünü təşkil etdiyi üçün ATƏT-in Minsk Qrupunun həmsədr ölkəsi qismində ABŞ-a minnətdarlığı ifadə edilir.***



Bildirilir ki, bu kimi görüşlər müsbət xarakter daşıyır və danışıqlar prosesinin irəli aparılmasına xidmət edir.

Üç saatdan çox davam edən görüşdə əsas müzakirə mövzusunu nazirlərin Paris və Moskva görüşləri nəticəsində əldə olunmuş razılaşmaların həyata keçirilməsi məsələsi təşkil edib. Vaşinqton görüşündə həmsədrlər hər iki tərəfin diqqətinə münaqişənin sülh yolu ilə həlli prosesində irəliləyişə nail olmaq üçün konkret nəticələrə yönəlmiş təkliflər təqdim ediblər. Yaxın aylarda eyni formatda növbəti görüşün keçirilməsinə dair ümumi razılıq əldə olunub.

# Vaşinqton görüşü nə ilə yadda qaldı?

***"Azərbaycan və Ermənistan XİN başçılarını Vaşinqton görüşü də digər görüşlər kimi yaddaqalan bir nəticə ilə yaddaqalan olmadı. Bu görüş də ATƏT-in Minsk qrupunun fəaliyyətindən ümidverici nəsə gözləməyin mənasız olduğunu göstərdi". Bu fikirləri SİA-ya açıqlamasında politoloq Nazakət Məmmədova deyib.***



Əksinə, Vaşinqton görüşü ətəfəsində Ermənistanın baş naziri Nikol Paşinyan tərəfindən hər zaman olduğu kimi yenidən destruktiv bəyanatların səsləndirildiyini deyən politoloq söyləyib ki, bundan başqa, ABŞ-a bağlı Gürcüstan müxalifətinin Tiflisdə Rusiyaya qarşı etirazları ilə Vaşinqton görüşünün eyni vaxta təsadüf etməsi arasında bir əlaqə olması istisna edilmir: "Bu ayın 5-dən 14-dək Gürcüstan baş naziri Mamuka Baxtadze ABŞ-da rəsmi səfərdə oldu, bir sıra yüksək səviyyəli görüşlər keçirdi, o cümlədən dövlət katibi Mayk Pompeo ilə onun audensiyası təşkil edildi. Bu onu göstərir ki, Azərbaycan və Ermənistan xarici işlər nazirlərini, Gürcüstan baş nazirini ABŞ-a dəvət etməklə Vaşinqton bölgədə açıq nüfuz savaşına başlayıb və Qərbə bağlı müxalifətin Rusiyaya bağlı "Gürcü arzusu" partiyasının qərargahına hücum etməsi Amerikanın Rusiyaya hücumu kimi qəbul edilə bilər. Vaşinqton Moskvaya Cənubi Qafqazı ona buraxmayacağı mesajını verdi".

N. Məmmədova qeyd edib ki, bütün bu proseslər 2020-ci ilə hazırlıq kimi dəyərləndirilə bilər: "İndidən artıq böyük güclər arasında Cənubi Qafqaz uğrunda savaş başlayıb. Fransa məhkəmələrinin Azərbaycanın xeyrinə addımlar atması, Amerikanın XİN başçılarını Vaşinqtona dəvət etməsi Minsk qrupu həmsədrləri arasında böyük nüfuz savaşından xəbər verir. Burada proseslərə ən hazırlıqlı ölkə Azərbaycandır".

Politoloq vurğulayıb ki, bu proseslərdən ən güclü, zərərsiz çıxma şansı olan ölkə Azərbaycandır: "Ermənistan və Gürcüstanı isə müəmmalı sürprizlər gözləyə bilər. Azərbaycanla bağlı əsas narahatlıq doğuran məsələ Qarabağda mütəmadi pozulan atəşkəsin esklasiyası və hərbi əməliyyatların başlaması ehtimalıdır. Gürcüstan və Ermənistanda isə siyasi sistemin dəyişikliyi ehtimalı böyükdür. Qarabağda rəngli inqilab, Paşinyan hakimiyyətinin zəifləməsi, Gürcüstanda parlament seçkiləri ilə əlaqədar iqtidar uğrunda ABŞ - Rusiya savaşı genişlənə bilər. Minsk qrupunun fəaliyyəti isə bu proseslər fonunda Qarabağ məsələsinə yanaşmada ümidverici nəsə vəd etmir".

***Nailə Məhərrəmova***

# "Danışıqların əsası Madrid prinsipləri olsa, o bizim xeyrimizədir"

"Vaxtilə Ki Uest şəhərində Ümummilli Lider Heydər Əliyevin iştirakı ilə görüş keçirilmişdi. Həmin görüşdə Ermənistanın sabiq prezidenti Robert Koçaryan da iştirak etmişdi. Orada Ulu Öndər Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi ilə bağlı çox sərt və prinsipial mövqeyimizi bildirmişdi. O vaxt bizim mövqeyimiz konkret olaraq Amerika dairələri tərəfindən qəbul olunmuşdu və yüksək qiymətləndirilmişdi". Bunu SİA-ya açıqlamasında politoloq Fikrət Sadıqov deyib.



Politoloqun sözlərinə görə, həmin hadisə Amerika mətbuatında çox yaxşı əks olunmuşdu: "Bizim indi də ABŞ-la münasibətlərimiz kifayət qədər yüksək səviyyədədir. Bildiyiniz kimi 28 May-Respublika Günü münasibətilə ABŞ prezidenti Donald Tramp Azərbaycan Prezidenti cənab İlham Əliyevə çox yaxşı bir məktub yazmışdı. Mən həmçinin ABŞ prezidentinin milli təhlükəsizlik məsələləri üzrə köməkçisi Con Boltonun regiona səfərini də qeyd etmək istərdim. O İrəvanda açıq şəkildə demişdir ki, bu məsələyə nöqtə qoymaq lazımdır. Yəni işğal olunmuş torpaqları azad etmək lazımdır. Hətta bundan sonra Ermənistanın müəyyən siyasi dairələri panikaya düşmüşdülər. Erməni mətbuatı bu barədə yazırdı.

İndi də Vaşinqtonda Azərbaycan və Ermənistan XİN rəhbərlərinin növbəti görüşü keçirilir. Hər halda ABŞ super dövlətdir. Əgər ABŞ və onun Dövlət Departamenti öz ərazisində özünün iştirakı ilə belə bir görüşün keçirilməsinə şərait yaradırsa, deməli burada müəyyən maraqlar vardır. Bu heç də o demək deyil ki, bu gün və yaxud sabah məsələyə nöqtə qoyulacaq, hər şey həll olunacaq. Amma bu istiqamətdə artıq müəyyən addımlar atılır. Düşünürəm ki, bu danışıqların əsası Madrid prinsipləri olsa, o bizim xeyrimizədir. Çünki orada söhbət mərhələli prinsiplərdən gedir. Əgər bu prinsip danışıqlarda əsas prinsip kimi istifadə olunsa, düşünürəm ki, müəyyən nəticələr ola bilər".

# Səyyad Salahlı: "Azərbaycanda dini sabitlik hökm sürür"




"Ulu öndər Heydər Əliyev 18 il əvvəl dövlət-din münasibətlərini daha da təkmilləşdirmək, dini sabitlik yaratmaq, ümumiyyətlə, dini münasibətlərin respublikada uyğun şəkildə həyata keçirilməsi üçün belə bir qurumun yaranmasına fərman imzalayıb". SİA-nın verdiyi məlumata görə, bunu jurnalistlərə açıqlamasında Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədrinin birinci müavini Səyyad Salahlı bildirib.

Onun sözlərinə görə, Azərbaycan çoxkonfessiyalı ölkədir. Həm xristian, həm iudaizm, həm islam, həm də digər dinlərin qolları Azərbaycanda fəaliyyət göstərir. Sədrin birinci müavini qeyd edib ki, Azərbaycan tolerantlığı, multikulturalizmi yüksək səviyyədə həyata keçirir və bu xüsusiyyətləri yerinə yetirməsinə görə ən öndər ölkələrdən biridir: "Dünyanın heç bir ölkəsində bir kilometrdən az radiusda hər üç dinin yanaşı yaşaması faktı qeydə alınmayıb. Biz dövlət olaraq nəinki bu dinlərin inkişafına kömək edirik, müəyyən istiqamətdə onlara yardımı əsirgəmirik, eyni zamanda Azərbaycan dövləti hər il onlar üçün kifayət qədər məbləğ ayırır. Ölkədə heç bir dövlətdə olmadığı kimi yəhudi sinaqoqları, xristian məbədləri tikilib və istifadəyə verilib. Digər ölkələrdə hər hansı bir dini icma öz dini məbədini tikmək istəyəndə dövlət onlara deyir ki, öz vətəndaşlarınızın ianəsi ilə özünüzə məbəd tikin. Azərbaycanda isə dövlət həmin məbədlərin tikilməsi üçün əlindən gələni edir".

S. Salahlı bildirib ki, bu işləri həyata keçirmək üçün 2001-ci ildə yaradılan komitə böyük işlər görür: "Komitənin fəaliyyətinin nəticəsidir ki, Azərbaycanda dini sabitlik hökm sürür. Biz Azərbaycanda fəaliyyət göstərən bütün dini konfessiyaların fəaliyyətini əlaqələndirməklə onların ölkədə azad şəkildə fəaliyyət göstərdiyini dünyaya bəyan edirik".

# Sosial islahatlar paketi əhalinin rifahını daha da yüksəldəcək



"Azərbaycan dövlətinin prioritet istiqamət olaraq qəbul etdiyi sosialyönümlü siyasət əhalinin maddi rifahının yaxşılaşdırılmasına və sosial müdafiəsinin gücləndirilməsinə istiqamətlənmiş xəttdir". Bu fikirləri "Səs" qəzetinə açıqlamasında Yeni Azərbaycan Partiyası Zaqatala rayon təşkilatının sədri Habil Qurbanov bildirib. Onun sözlərinə görə, dövlət tərəfindən həyata keçirilən sosialyönlü tədbirlər nəticəsində, vətəndaşların maddi rifah halı yaxşılaşdırılıb, sosial müdafiə və təminat sistemi gücləndirilib, sosial tələbat və ehtiyacları yüksək səviyyədə ödənilib. Prezident İlham Əliyevin 18 iyun 2019-cu il tarixli sərəncamlarına diqqəti çəkən təşkilat sədri məlum Sənədlər və yeni qanunvericilik təşəbbüsünün 2,1 milyon vətəndaşın əməkhaqqı və pensiyasında ciddi artıma imkan verdiyini vurğulayıb: "Sosial sahədə yeni inqilabi addımlar olan bu artımlar sosial inkişaf, əhalinin sosial müdafiəsi baxımından, başqa illərdən fərqlənən il olacağını bəyan edən dövlət başçısının təqdim etdiyi yeni uğurlu sosial paketi bu bəyanatın daha bir real təsdiqidir. Dövlət başçısının 18 iyun 2019-cu il tarixində imzaladığı sərəncamlarla ölkədə minimum əməkhaqqının, həmçinin, müxtəlif sahələrdə çalışanların əməkhaqlarının artırılması təmin olunub. Həqiqətən də, bu sosial sıçrayışdır və əhali tərəfindən böyük məmnunluqla qarşılanır. Əmək pensiyasının minimum məbləğinin artırılaraq, cari il oktyabrın 1-dən 160 manatdan 200 manata çatırılması təmin ediləcək ki, bu da, dövlət başçısının təşəbbüsü ilə, cari il ərzində, əmək pensiyasının minimum məbləğinin artırılması istiqamətində atılan artıq ikinci mühüm addımdır".

Rayon təşkilatının sədri bundan əvvəl də dövlət başçısının qanunvericilik təşəbbüsü əsasında pensiyanın minimum məbləğinin cari il martın 1-dən artırılaraq, 116 manatdan 160 manata çatdırıldığını qeyd edərək, bunu sosial sahədə inqilabi addım kimi dəyərləndirilməsinin real faktlara söykəndiyini vurğulayıb: "2019-cu il ərzində Azərbaycanda minimum pensiyanın məbləği, ümumən, 72,4 faiz artırılmaqla, 116 manatdan 200 manata çatdırılıb. Sosial sahədə yeni inqilabi addımlar olan bu artımlar Prezident İlham Əliyevin uğurlu sosial sosial siyasətinin daha bir mühüm nailiyyətidir. Təbii ki, son vaxtlar artan maliyyə imkanlarımız əhalinin digər sosial ehtiyaclarının ödənilməsinə yol açır. Dövlət başçısının imzaladığı sərəncamlar, bir daha göstərir ki, ölkəmizin artan maliyyə imkanları, ilk növbədə, əhalinin sosial rifahının gücləndirilməsinə təsirini göstərir. Məlumdur ki, Prezident İlham Əliyevin fiziki şəxslərin problemli kreditlərinin həlli ilə bağlı əlavə tədbirlər haqqında Fərmanı sosial sahədə atılan addımların davamı kimi ictimaiyyət tərəfindən böyük rəğbətlə qarşılandı. Bütövlükdə, bütün bunlar təsdiqləyir ki, dövlət öz vətəndaşının sosial rifahı üçün bütün lazımlı addımları atır".

Bu gün Azərbaycanın inkişaf və tərəqqi dövrünü yaşadığını deyən rayon təşkilatının sədri müasir, modern dövlət olaraq tanınan ölkəmizin Prezident İlham Əliyevin həyata keçirdiyi siyasət nəticəsində iqtisadi islahatları reallaşdıran, innovativ inkişafa yol açan dövlətə çevrildiyini qeyd edib: "Həyata keçirilən kompleks islahatlar, geniş quruculuq işləri və yaradılan güclü iqtisadiyyat Azərbaycanın əsas inkişaf göstəriciləridir. Bu uğurlar ölkəmizdə hökm sürən sabitliyin və əmin-amanlığın mövcudluğunu təsdiqləyir. Prezident İlham Əliyev, çıxışlarının birində vurğuladığı kimi, sabitlik olmayan yerlərə investisiyalar qoyulmur, inkişaf olmur, vəziyyət mənfi istiqamətdə inkişaf edir. Ölkəmiz 2003-cü ildən yeni inkişaf mərhələsinə qədəm qoyaraq, dövrün çağırışlarının öhdəsindən yüksək səviyyədə gəlir. Əgər bu gün Azərbaycanın qazandığı biri-birindən əhəmiyyətli uğurlarından bəhs ediriksə, gələcəkdə daha möhtəşəm uğurlardan danışacağıq. Həyat davam edir və bu davamlılıq inkişaf tərəqqi ilə müşayiət olunanda, daha böyük ruh yüksəkliyi yaradır. Bu uğurlara yol açan əsas amil isə möhkəm təmələ əsaslanan siyasətdir".

*Zümrüd BAYRAMOVA*

# Avstriya Mətbuat Agentliyi "Dinlərarası və sivilizasiyalararası əməkdaşlıqdan bəşəri həmrəyliyə" mövzusunda konfransla bağlı məqalə yayıb




**Konferenz "Von der interreligiösen und gesellschaftsübergreifenden Zusammenarbeit zur menschlichen Solidarität"**

*Wien (OTS)* - Mit gemeinsamer Organisation durch das Baku Internationale Zentrum für interreligiöse und gesellschaftsübergreifende Zusammenarbeit, das Internationale Zentrum für interreligiösen und interkulturellen Dialog KAICIID, das Genfer Zentrum für Menschenrechte und globalen Dialog und die Botschaft der Republik Aserbaidschan in der Republik Österreich wurde eine internationale Konferenz zum Thema „Von der interreligiösen und gesellschaftsübergreifenden Zusammenarbeit zur menschlichen Solidarität" am 19. Juni 2019 im Hofburg Palace in Wien abgehalten. An Veranstaltung haben Vertreter der Regierung, des Parlaments, der internationalen Organisationen sowie Nichtregierungsorganisationen, Vertreter der Wissenschaft, religiöser Konfessionen aus Österreich und aus mehr als 30 Ländern, sowie die Vertreter der in Österreich akkreditierten Botschaften und internationalen Organisationen teilgenommen. Die Aserbaidschanische Delegation unter der Leitung des Vorstehers der Verwaltung der Muslime des Kaukasus, Generalsekretärs von „Baku Internationales Zentrum für interreligiöse und gesellschaftsübergreifende Zusammenarbeit" Sheikh-ül-Islam A. Pashazade und des Beraters des Staatspräsidenten der Republik Aserbaidschan Ali Hasanov war durch verschiedene Vertreter der Regierung, des Parlaments, der Wissenschaft und Religion vertreten.

Die Organisation der internationalen Konferenz basiert auf der Notwendigkeit der Förderung des multikulturellen Models und der Entwicklung des interreligiösen und gesellschaftsübergreifenden Dialogs und der Zusammenarbeit sowie auf Lösung von Problemen, die die moderne Welt beunruhigen. Die internationale Konferenz in Österreich, das ein führendes europäisches Land ist und wo diverse Kulturen und Religionen vertreten sind, dient zur Steigerung der Aufmerksamkeit der Weltgemeinschaft auf globaler Ebene auf dieses wichtige Thema, zur Förderung des Friedens und Sicherheit, insbesondere zur Demonstrierung einer gemeinsamen Position durch Vertreter unterschiedlicher Kulturen, Zivilisationen und Religionen gegen interreligiöse Konflikte.

Bild, 7MB
Bild, 7MB
Bild, 6MB
Bild, 7MB
Bild, 10MB
Bild, 89KB

Avstriya Mətbuat Agentliyi (APA) iyunun 19-da Vyanada keçirilmiş "Dinlərarası və sivilizasiyalararası əməkdaşlıqdan bəşəri həmrəyliyə" mövzusunda konfransla bağlı məqalə yayıb.

AZƏRTAC xəbər verir ki, məqalədə konfransın Qafqaz Müsəlmanları İdarəsinin nəzdində Bakı Beynəlxalq Dinlərarası və Sivilizasiyalararası Əməkdaşlıq Mərkəzinin, KAİCİİD Beynəlxalq Dinlərarası və Mədəniyyətlərarası Dialoq Mərkəzinin, Cenevrə İnsan Hüquqları və Qlobal Dialoq Mərkəzinin və Azərbaycanın Avstriyadakı səfirliyinin birgə təşkilatçılığı ilə baş tutduğu qeyd edilib. Bildirilib ki, nüfuzlu beynəlxalq konfransda Avstriya və dünyanın 30-dan çox ölkəsindən hökumət, parlament üzvləri, beynəlxalq qurumların, qeyri-hökumət təşkilatlarının, iqtisadi dairələrin, dini konfessiyaların təmsilçiləri, eləcə də Vyanada akkreditə olunmuş səfirlik və beynəlxalq təşkilatların nümayəndələri iştirak ediblər. Qafqaz Müsəlmanları İdarəsinin sədri, Bakı Beynəlxalq Dinlərarası və Sivilizasiyalararası Əməkdaşlıq Mərkəzinin baş katibi Şeyxülislam Allahşükür Paşazadənin və Azərbaycan Respublikası Prezidentinin ictimai-siyasi məsələlər üzrə köməkçisi Əli Həsənovun rəhbərlik etdikləri Azərbaycan nümayəndə heyətinin tərkibində hökumət və parlament təmsilçiləri, elm və din xadimləri yer alıblar.

Məqalədə qeyd edilib ki, beynəlxalq konfransın təşkili multikulturalizm modelinin təbliğinin bəşəri önəminə diqqət çəkmək, dinlərarası və sivilizasiyalararası dialoq və əməkdaşlığın inkişaf etdirilməsinin müasir dünyanı narahat edən problemlərin aradan qaldırılmasında əhəmiyyətini vurğulamaq məqsədini daşıyır. Avropanın aparıcı dövləti olan və müxtəlif mədəniyyətlərin, dinlərin təmsil olunduğu Avstriyada keçirilən beynəlxalq konfrans qlobal əhəmiyyət kəsb edən bu mövzuya dünya ictimaiyyətinin diqqətini daha da artırmaq, sülhü və əmin-amanlığı təhdid edən amillərə, xüsusilə dinlərarası ixtilaflara qarşı müxtəlif mədəniyyətlərin, sivilizasiyaların və dinlərin nümayəndələrinin birgə mövqeyini nümayiş etdirmək məramına xidmət edir. Konfransda Azərbaycan Respublikası Prezidentinin beynəlxalq konfransın iştirakçılarına müraciəti oxunub. Müraciətdə Vyana beynəlxalq konfransında aparılan müzakirələrin və verilən konstruktiv təkliflərin dünyada dinlərarası dialoqun təbliğinə, mədəniyyətlərarası harmoniyanın gücləndirilməsinə, sülhə və qarşılıqlı anlaşmaya töhfələr verəcəyinə əminlik ifadə olunub.

Diqqətə çatdırılıb ki, tədbirdə, həmçinin BMT Baş katibinin müavinləri Migel Angel Moratinos və Rəşid Xalikov çıxış ediblər. Şeyxülislam Allahşükür Paşazadə öz çıxışında Azərbaycanda milli və bəşəri dəyərlərə, multikulturalizm ənənələrinə böyük önəm verildiyini, müxtəlif mədəniyyətlər və dinlər arasında əməkdaşlığın dövlət səviyyəsində dəstəkləndiyini bildirib. O, Ermənistanın Azərbaycana qarşı təcavüzü nəticəsində işğal olunmuş ərazilərimizdə tarixi, mədəni və dini abidələrin məhv edildiyini diqqətə çatdıraraq, münaqişənin beynəlxalq hüququn normaları əsasında sülh yolu ilə həllinin vacibliyini, BMT-nin məlum qətnamələrinin yerinə yetirilməsinin və ATƏT-in Minsk qrupunun öz səylərini artırmasının zəruriliyini vurğulayıb. Vyana konfransında Azərbaycanın sivilizasiyalararası və dinlərarası əməkdaşlığın inkişafında rolunu və multikulturalizm dəyərlərini əks etdirən "Bəşəri çağırış" filmi nümayiş etdirilib. Vurğulanır ki, tədbirin sonunda beynəlxalq konfransın iştirakçıları yekun sənəd - Vyana Bəyannaməsi qəbul ediblər. Sənəddə qeyd olunur ki, müasir dünyada humanist ideyaların təşviqi və multikultural həyat tərzinin təbliği baxımından önəm kəsb edən belə forumların davamlı keçirilməsi olduqca aktual və zəruridir.

## Bu il Azərbaycana dünyanın 180 ölkəsindən 1 milyondan çox turist gəlib

Yanvar-may aylarında Azərbaycana dünyanın 180 ölkəsindən 1094,8 min və ya 2018-ci ilin müvafiq dövrü ilə müqayisədə 3,7 faiz çox əcnəbi və vətəndaşlığı olmayan şəxs gəlib. Gələnlərin 28,5 faizi Rusiya Federasiyası, 26,0 faizi Gürcüstan, 10,9 faizi Türkiyə, 7,7 faizi İran, 3,0 faizi Birləşmiş Ərəb Əmirlikləri, hər birindən 1,9 faiz olmaqla Ukrayna və Hindistan, hər birindən 1,6 faiz olmaqla Böyük Britaniya və Türkmənistan, hər birindən 1,2 faiz olmaqla Pakistan və İraq, 14,4 faizi digər ölkələrin vətəndaşları, 0,1 faizi isə vətəndaşlığı olmayan şəxslər olub. Gələnlərin 69,1 faizini kişilər, 30,9 faizini isə qadınlar təşkil edib. /Trend/

Ölkəmizə yanvar-may aylarında gələnlərin sayında daha çox artım Türkmənistan (1,9 dəfə), Misir (1,8 dəfə), Çin (1,8 dəfə), Hindistan (1,7 dəfə), Səudiyyə Ərəbistanı (1,7 dəfə), Böyük Britaniya (42,3 faiz), Cənubi Koreya (31,4 faiz), Yaponiya (30,1 faiz), Almaniya (28,0 faiz), Kanada (27,7 faiz), Polşa (23,4 faiz) və Gürcüstan (22,7 faiz) vətəndaşları arasında qeydə alınıb.

2019-cu ilin yanvar-may aylarında Avropa İttifaqına üzv ölkələrdən gələnlərin sayı 27,8 faiz artaraq 54,4 min nəfər, MDB ölkələrindən gələnlərin sayı isə 3,6 faiz artaraq 380,8 min nəfər olub.

Ölkəmizə gələn əcnəbilər və vətəndaşlığı olmayan şəxslərin 60,4 faizi dəmir yolu və avtomobil, 38,8 faizi hava, 0,8 faizi isə su nəqliyyatından istifadə edib. 2019-cu ilin yanvar-may aylarında xarici ölkələrə gedən Azərbaycan Respublikası vətəndaşlarının sayı əvvəlki ilin müvafiq dövrü ilə müqayisədə 25,5 faiz artaraq 2065,9 min nəfər olub. Ölkə vətəndaşlarının 39,5 faizi İrana, 27,0 faizi Gürcüstana, 18,3 faizi Rusiya Federasiyasına, 9,8 faizi Türkiyəyə, 5,4 faizi isə digər ölkələrə gedib. Gedənlərin 66,4 faizi kişilər, 33,6 faizi isə qadınlar olub.

Bu dövrdə İrana gedən Azərbaycan vətəndaşlarının sayı 73,6 faiz, Gürcüstana gedənlərin sayı 10,6 faiz, Rusiya Federasiyasına gedənlərin sayı 5,6 faiz, Türkiyəyə gedənlərin sayı isə 0,1 faiz artıb. Cari ilin yanvar-may aylarında xarici ölkələrə səfər etmiş Azərbaycan Respublikası vətəndaşlarının 83,8 faizi dəmir yolu və avtomobil, 15,4 faizi hava, 0,8 faizi isə su nəqliyyatından istifadə edib.

# Azərbaycanda dinlər arasında yaranan dözümlülük və tolerantlıq dünyaya örnəkdir

## *Dini fəaliyyət sahəsində dövlət siyasətini həyata keçirən Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin yaradılmasından 18 il ötür*

***Azərbaycandakı multikulturalizm mühiti müxtəlif xalqların və etnik qrupların dilinin, dininin və ümumilikdə, mənəvi mədəniyyətinin inkişafına geniş imkanlar yaradır. Azərbaycanda dövlət-din münasibətləri tənzimlənib, dini sahədə sabitliyə nail olunub, konfessiyalar arasında dözümlülük mühiti dövlət səviyyəsində qorunub-saxlanılır. Tolerantlıq mühiti dövlət-din konsepsiyasına uyğun daha da möhkəmlənib, bu sahə də dövlət siyasətinin prioritet istiqamətlərindən birinə çevrilib. Müxtəlif tarixi dövrlərdə Azərbaycan ərazisində məskunlaşmış dini-etnik qruplar burada özlərini, nəinki yad hesab edib, hətta yerli əhali ilə qaynayıb-qarışıb, qohumluq əlaqələri qurublar. Fərqli dini konfessiyaların nümayəndələri hər zaman Azərbaycan xalqı ilə həmrəy olub, Azərbaycan "Tolerant ölkədən tolerant dünyaya doğru!" şüarının reallaşdırılmasını özünün hədəfi kimi müəyyənləşdirib.***




Ölkəmizdə dözümlülük ənənələrinin qorunub-saxlanılmasına Azərbaycan Respublikası Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi də öz böyük töhfəsini verir. Dini fəaliyyət sahəsində dövlət siyasətini həyata keçirən mərkəzi icra hakimiyyəti orqanı olan Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi Azərbaycan Respublikası Prezidentinin 21 iyun 2001-ci il tarixli ilə yaradılıb. Azərbaycan dövlət müstəqilliyini bərpa etdikdən sonra yenidən qurulan dövlətin dəyərlər sisteminin dəqiqləşdirilməsi mürəkkəb daxili və beynəlxalq vəziyyətdə dövlət quruculuğuna başlayan ölkəmiz üçün müstəsna əhəmiyyətə malik idi. Belə bir zamanda dövlətin dinə, eləcə də, ölkədə fəaliyyət göstərən fərqli dini konfessiyalara və icmalara münasibətinin prinsipial məqamlarının müəyyənləşdirilməsi vacib hesab edilirdi. Müstəqil Azərbaycanın Banisi, xalqımızın Ümummilli Lideri Heydər Əliyevin rəhbərliyi altında dövlət quruculuğu prosesinin tərkib hissəsi kimi dövlət-din münasibətləri sisteminin əsas prinsipləri, bu sahəni tənzimləyən qanunvericilik bazası uğurla formalaşdırıldı. Ulu Öndərin dövlət-din münasibətlərinin tənzimlənməsi sahəsində böyük və tarixi xidmətlərindən biri olan Azərbaycan Respublikası Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin yaradılması oldu.

Dövlət Komitəsinin yaranması barədə Fərmanla komitənin qarşısına Azərbaycan Respublikası Konstitusiyasının 48-ci maddəsinin həyata keçirilməsi üçün müvafiq şəraitin yaradılması, dini etiqad azadlığı ilə bağlı qanunvericilik aktlarına riayət olunmasına nəzarətin təmin edilməsi, dini qurumların dövlət qeydiyyatına alınması, zərərli təriqətlərin fəaliyyətinə son qoyulması və digər vəzifələr qoyuldu. Beynəlxalq aləmdə, xüsusilə, regionda və ölkədə gedən proseslər, eləcə də, dini durumda baş verən hadisələr Ümummilli Liderin bu qərarının nə qədər müdrik addım olduğunu bir daha təsdiqlədi. Ulu Öndər deyirdi: "Biz azərbaycanlılar islam dini ilə fəxr edərək, eyni zamanda, heç vaxt başqa dinlərə qarşı mənfi münasibət göstərməmişik, düşmənçilik etməmişik, ədavət aparmamışıq və heç bir başqa xalqı da öz dinimizə itaət etməyə məcbur etməmişik. Ümumiyyətlə, başqa dinlərə dözümlülük, başqa dinlərlə yanaşı və qarşılıqlı anlaşma şəraitində yaşamaq islam dəyərlərinin xüsusiyyətidir. Bu, tarix boyu Azərbaycanda da, Qafqazda da öz əksini tapıbdır. Azərbaycanda islam dini ilə yanaşı, xristian dini də, yəhudi dini də əsrlər boyu yaşayıb və indi də yaşayır. Qafqazda da bu mənzərə var. Hesab edirik ki, insanlar hansı dinə, hansı mədəniyyətə mənsubluğundan asılı olmayaraq, bütün başqa mədəniyyətlərə, dinlərə, mənəvi dəyərlərə də hörmət etməli, o dinlərin bəzən kimsəyə xoş gəlməyən adət-ənənələrinə dözümlü olmalıdırlar".

### AZƏRBAYCANIN TOLERANTLIQ TƏCRÜBƏSİ VƏ MULTİKULTURAL DƏYƏRLƏRİ TƏBLİĞ OLUNUR

Bu gün Ulu Öndərin siyasi kursunu uğurla davam etdirən Azərbaycan Prezidenti İlham Əliyev, bütün sahələrə olduğu kimi, bu sahəyə də ayırdığı diqqət nəticəsində, milli-mənəvi dəyərlərimizin yaşadılması, tarixi-dini abidələrimizin bərpası, dövlət-din münasibətlərinin tənzimlənməsi sahəsində regionun lider dövlətinə çevrilib. Azərbaycan Prezidenti İlham Əliyevin məqsədyönlü fəaliyyəti nəticəsində, ölkədə ictimai-siyasi sabitlik, milli-mənəvi birlik, multikultural və tolerant mühit formalaşıb. Dövlət siyasətini həyata keçirən Dövlət Komitəsi 18 illik fəaliyyətində dini etiqad azadlığı prinsiplərinin qorunması, dövlət-din münasibətlərinin qanunvericilik əsasında tənzimlənməsi, dini dözümlülük ənənələrinin möhkəmləndirilməsi, dini icmalar arasında qarşılıqlı əməkdaşlığın gücləndirilməsi və dini dözümsüzlük meyillərinin qarşısının alınması istiqamətində ardıcıl tədbirlər həyata keçirir. Ölkədə dini durum, bu sahədə mövcud problemlər, zərərli təriqətlərin təbliği, dini icmaları narahat edən məsələlər dərindən öyrənilir və zaman keçdikcə, onların həllində müsbət nəticələr əldə olunur. Dini maarifləndirmə işini komitənin təsis etdiyi "Cəmiyyət və Din" qəzeti, "Dövlət və Din" ictimai fikir toplusu, DQİDK əməkdaşlarının müəllifi olduğu nəşrlər, eləcə də, televiziya proqramları vasitəsilə də aparan Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sifarişi əsasında dini radikalizmin, xurafatın törətdiyi fəsadları və təhlükələri ictimaiyyətə daha aydın şəkildə çatdırmaq, həmçinin, bu sahədə maarifləndirmə işinin effektivliyini artırmaq məqsədilə "Fitnə", "Şəhadət", "Vəhdət qanımızdadır" və digər sənədli filmlər çəkilərək, geniş ictimaiyyətə təqdim edilib. Komitənin aidiyyəti qurumlarla birgə təşkilatçılığı ilə Azərbaycanın tolerantlıq təcrübəsi və multikultural dəyərlərinin, eləcə də, zəngin mənəvi-əxlaqi irsinin təbliği istiqamətində "Ekstremizmə qarşı mübarizədə din və etiqad azadlığının təmin olunması: Azərbaycandakı çətinliklər və mövcud təcrübə", "Demokratik cəmiyyətdə din və əqidənin rolu: terrorizm və ekstremizmə qarşı mübarizə yollarının araşdırılması", "Din və demokratiya: nəzəriyyə və tarixi təcrübə", "Heydər Əliyev və Azərbaycanda din siyasəti: gerçəkliklər və perspektivlər", "İslam həmrəyliyi: dini və mədəni müxtəlifliyin harmoniyası", "Rusiya-Azərbaycan: sülh təhlükəsizlik və əməkdaşlıq naminə konfessiyalararası dialoq və islam həmrəyliyi", "Dinlərarası və sivilizasiyalararası dialoqdan əməkdaşlığa doğru" və s. mövzularında beynəlxalq konfranslar, simpoziumlar, panellər keçirilib.

### BU GÜN ÖLKƏMİZDƏ 2250 MƏSCİD, 14 KİLSƏ VƏ 7 SİNAQOQ FƏALİYYƏT GÖSTƏRİR

Azərbaycan Prezidenti İlham Əliyevin bu sahəyə xüsusi diqqət və qayğısının nəticəsi olaraq, bu gün dövlət və din münasibətləri özünün ən yüksək səviyyəsindədir. Azərbaycanda bütün dinlərin nümayəndələri öz dini ayinlərini azad şəkildə icra etməkdədirlər. Azərbaycanda bütün dinlərin nümayəndələri qarşılıqlı hörmət və anlaşma, sülh şəraitində birgə yaşayır və Milli Məclisdə təmsil olunurlar. Ölkədə mövcud ictimai sabitlik, vətəndaş həmrəyliyi və etnik dini dözümlülük mühiti mütərəqqi tarixi ənənələrdən bəhrələnən milli siyasətin məntiqi nəticəsidir. Azərbaycan müxtəlif etnosların və millətlərin, fərqli dinlərə sitayiş edən insanların tarixən dostluq və qardaşlıq şəraitində yaşadığı tolerant ölkəyə çevrilib. Bu gün ölkəmizdə 2250 məscid mövcuddur, 14 kilsə və 7 sinaqoq fəaliyyət göstərir. Bununla yanaşı, ölkə ərazisində 748 pir və ziyarətgah fəaliyyət göstərir.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 10 oktyabr 2017-ci il tarixli Fərmanı ilə ölkədə mövcud dini konfessiyaların dəstəklənməsini, mənəvi dəyərlərin qorunması və inkişafını, habelə, bu sahəyə dövlət dəstəyinin gücləndirilməsini təmin etmək məqsədi ilə Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin tabeliyində Mənəvi Dəyərlərin Təbliği Fondu fəaliyyət göstərir. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 9 fevral 2018-ci il tarixli Sərəncamı ilə Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin tabeliyində Azərbaycan xalqının tarixi ənənələrinə söykənən və dövlət siyasətinin məntiqi nəticəsi olan yüksək dini-mənəvi mühitin qorunub-saxlanılmasını və inkişaf etdirilməsini, dini fəaliyyətin təşkili sahəsində yüksək ixtisaslı kadrların hazırlanmasını təmin etmək məqsədilə Azərbaycan İlahiyyat İnstitutu yaradılıb.

***Nəzakət ƏLƏDDİNQIZI***

# Mübariz Əhmədoğlu: "Aprel hadisələri üzrə parlament komissiyası Tonoyanı mühakimə etmək gücündə deyil"



*"Nikol Paşinyan separatçı Dağlıq Qarabağdakı qondarma rəhbərliklə gərgin mübahisəsi fonunda 2016-cı ilin aprel hadisələrinə dair komissiya yaratdı. Əksəriyyətin fikrincə, bu komissiya separatçı Dağlıq Qarabağın qondarma rəhbərliyini cəzalandırmaq məqsədini daşıyır". Bu fikirləri Siyasi İnnovasiya və Texnologiyalar Mərkəzinin rəhbəri, politoloq Mübariz Əhmədoğlu deyib.*

Onun sözlərinə görə, bu komissiyaya ən ciddi etiraz edən Ermənistanın müdafiə naziri D.Tonoyan oldu: "Onun fikrincə, bu komissiya Azərbaycanın apardığı informasiya müharibəsi nəticəsində yaranıb və komissiyanın nəticələri Azərbaycanın informasiya müharibəsindəki mövqeyini daha da gücləndirəcək. Tonoyanın narazı qalmasının səbəbi bəllidir. Çünki 2016-cı ildə aprel döyüşləri onun "Statik müdafiədən aktiv cilovlamaya" konsepsiyasından başlandı. Tonoyan ABŞ-da olarkən, "yeni ərazilər üçün yeni müharibələr" konsepsiyasını irəli sürdü. Həm "Statik müdafiədən aktiv cilovlamaya" konsepsiyasının, həm də "yeni ərazilər üçün yeni müharibələr" tezisinin Rusiyadan kənarda, Qərb məkanında formalaşdırılması və ortalığa qoyulması diqqəti çəkir. Ehtimal ki, Serj Sarkisyanı devirmək üçün məhz hərbi təxribat lazım idi. 2015-ci ildən bəri S.Sarkisyan Qərbə razılıq versə də, Qərbin planlarını reallaşdıra bilmirdi. Görünür, "yeni ərazilər üçün yeni müharibə" tezisini ABŞ-da gündəliyə gətirməklə, D.Tonoyan ABŞ-ın N.Paşinyandan məyus olduğunu nümayiş etdirmək istəyir. Başqa sözlə, artıq Qərb N.Paşinyana inanmır və hesab edir ki, onun üzərində təzyiq olmalıdır".

### "N.Paşinyan aprel komissiyasını yaradarkən, indiki mövqeyi ilk mövqeyindən fərqlidir"

"Bu təzyiq özünü doğrulda bilməyəcəksə, hakimiyyətdən getməlidir" deyə qeyd edən politoloq hesab edir ki, ona görə əsas hədəf N.Paşinyandır: "Artıq hiss olunur ki, N.Paşinyan aprel komissiyasını yaradarkən, indiki mövqeyi ilk mövqeyindən fərqlidir. S.Sarkisyanın aprel döyüşlərinə görə Müdafiə Nazirliyindən uzaqlaşdırdığı hərbçiləri indi vəzifəyə qaytarır. N.Paşinyanın S.Sarkisyanı da istintaqa cəlb etməsi mümkün deyil, çünki D.Tonoyanın S.Sərkisyana münasibəti çox müsbətdir. Faktiki olaraq, Tonoyanın müdafiə naziri müavini vəzifəsindən azad etdi və fövqəladə hallar naziri təyin etdi. İndi də fövqəladə hallar naziri dövründə baş vermiş korrupsiya halları ilə bağlı məlumatlar aşkarlansa da, bu işdə heç bir dinamika yoxdur".

### "D.Tonoyanın xoşuna gəlməsə, hərbçilər aprel komissiyasının üzvlərini həbs edəcəklər"

M.Əhmədoğlu qeyd edib ki, aprel komissiyasının D.Tonoyanı istintaqa cəlb etməsi, N.Paşinyanın müdafiə nazirini hər hansı bir yolla cəzalandırması qeyri-mümkündür: "Əksinə, Qərbin dəstəyinə malik müdafiə naziri D.Tonoyan özünün mövqeyini möhkəmləndirmək üçün yeni addımlar atır. Onun "Ermənistanda kimsə hakimiyyəti devirməyə cəhd etsə, qarşısında ordunu görəcəkdir" bəyanatı diqqətdən kənarda qalmamalıdır. Aprel komissiyasının müzakirələri və yaxud qərarı D.Tonoyanın xoşuna gəlməsə, hərbçilər aprel komissiyasının üzvlərini həbs edəcəklər. Beləliklə, Ermənistanda geri sayım başlanıb. N.Paşinyan D.Tonoyanı sıradan çıxara bilməyəcək. O, aprel komissiyasını yaratmaqla, öz taleyini D.Tonoyanın əlinə verdi".

*Rövşən RƏSULOV*

# Gürcüstan parlamentinin sədri istefa verib



Gürcüstan parlamentinin Sədri İrakli Kobaxidze Tbilisidə keçirilən etiraz aksiyaları fonunda istefa verməyi qərara alıb. AZƏRTAC xəbər verir ki, bu barədə hakim "Gürcü Arzusu" partiyasının baş katibi, Tbilisi şəhərinin meri Kaxa Kaladze mətbuat konfransında məlumat verib.

Gürcüstan parlamentinin sədri vəzifəsini müvəqqəti olaraq birinci vitse-spiker Tamar Çuqoşvili icra edəcək.

# Türkiyə səfiri: Azərbaycan, Türkiyə və Gürcüstan son 25 ildə uğurlu layihələr həyata keçirib



Azərbaycan, Türkiyə və Gürcüstan son 25 ildə çox mühüm əhəmiyyət kəsb edən layihələr həyata keçiriblər. Bu layihələr təkcə bizim ölkələrin deyil, dünyanın iqtisadi inkişafında mühüm rol oynayır. AZƏRTAC xəbər verir ki, bu sözləri Türkiyənin Gürcüstandakı səfiri Fatma Ceren Yazqan iyunun 21-də Tbilisidə keçirilən 8-ci "Caspian Energy Forum"dakı çıxışında deyib.

Səfir deyib ki, Bakı-Tbilisi-Ceyhan neft, Bakı-Tbilisi-Ərzurum qaz kəmərləri, Bakı-Tbilisi-Qars dəmir yolu və digər regional layihələr hazırda təkcə bu regionun deyil, Avropanın inkişafında mühüm rol oynayır. "Biz əvvəl bu layihələri həyata keçirərkən Çini və digər bəzi inkişaf etmiş dövlətləri nəzərə almamışdıq. Amma bu gün Çin və digər böyük dövlətlərin bu layihəyə qoşulması bizim birgə səylərimizin və gördüyümüz işlərin necə böyük əhəmiyyətə malik olduğunu sübut edir", - deyə səfir bildirib.

Onun sözlərinə görə, layihələrin daha böyük gəlir gətirməsi, xalqlarımızın rifah halının yaxşılaşmasına təkan verməsi üçün təhlükəsizlik məsələlərinə xüsusi diqqət yetirilməlidir. Digər tərəfdən insan kapitalı diqqət mərkəzində olmalıdır. "İnsan kapitalının inkişafı xalqlarımızın və dövlətlərimizin inkişafı üçün böyük fayda gətirəcək" - deyə, diplomat vurğulayıb.

# Naxçıvanda kənd təsərrüfatı məhsullarının istehsal həcmi artıb



Cari ilin yanvar-may aylarında muxtar respublikada 54 milyon 392 min 800 manatlıq kənd təsərrüfatı məhsulları istehsal olunub. Bu da ötən ilin müvafiq dövrü ilə müqayisədə 2,6 faiz çoxdur. Naxçıvan Muxtar Respublikası Dövlət Statistika Komitəsinin mətbuat xidmətindən AZƏRTAC-ın Naxçıvan bürosuna bildirilib ki, hesabat dövründə diri çəkidə ət istehsalı 9 min 166 ton, süd istehsalı isə 36 min 317,4 ton olub. Keçən ilin müvafiq dövrü ilə müqayisədə ət istehsalı 2,2 faiz, süd istehsalı isə 2 faiz artıb.

# Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin iclası keçirilib

İyunun 21-də Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin iclası keçirilib. AZƏRTAC xəbər verir ki, komitə sədri Ziyad Səmədzadə son vaxtlar Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin ölkəmizdə iqtisadi, sosial islahatların dərinləşməsi ilə əlaqədar çox mühüm tədbirlər həyata keçirdiyini bildirib. Bildirib ki, dövlətimizin başçısı 2018-ci ilin ikinci yarısından başlayaraq bu günə kimi ölkənin iqtisadi həyatında keyfiyyət dəyişiklikləri etmək, əhalinin sosial vəziyyətini yaxşılaşdırmaq istiqamətində çoxsaylı fərman və sərəncamlar imzalayıb. Əgər bu gün minimum əməkhaqqı 250 manat təşkil edirsə, bu, o deməkdir ki, biz MDB məkanında göstəriciyə görə ən qabaqcıl ölkələr sırasına çıxmışıq. Bu islahatlar Azərbaycan xalqı tərəfindən yüksək səviyyədə qarşılanıb. Atılan hər bir addım Azərbaycan xalqının keyfiyyətli yaşayışına, iqtisadi fəallığın canlanmasına yönəldilib. Gündəliyə daxil edilmiş məsələlər birmənalı şəkildə bu proseslərin qanunvericilikdə də əksini tapmasını nəzərdə tutur.

İclasda iştirak edən Maliyyə nazirin müavini Azər Bayramov deyib ki, "Azərbaycan Respublikasının 2019-cu il dövlət büdcəsi haqqında", "İşsizlikdən sığorta fondunun 2019-cu il büdcəsi haqqında" qanun layihələrində dövlət büdcəsinə bəzi xərclərin optimallaşdırılması, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Dövlət Sosial Müdafiəsi Fondunun (DSMF) və İşsizlikdən Sığorta Fondunun gəlir və xərclərinin, həmçinin icmal büdcə xərclərinin yuxarı həddinin artırılması nəzərdə tutulub.

Nazir müavini qeyd edib ki, Prezident İlham Əliyevin daim prioritet hesab etdiyi ölkə əhalisinin rifah halının daha da yaxşılaşdırılması, əsas sosial qrupların müdafiəsinin gücləndirilməsi, xüsusilə də minimum əmək pensiyalarının, sosial müavinətlərin, büdcə təşkilatlarında çalışanların əməkhaqlarının artırılması ilə əlaqədar verdiyi tapşırıqların icrası olaraq əlavə maliyyə təminatının formalaşması üçün qeyd olunan




qanunlarda müvafiq dəyişikliklərin edilməsi zərurəti yaranıb. Dövlətimizin başçısının tapşırıqlarına uyğun olaraq, əmək pensiyalarının və müavinətlərin əhəmiyyətli dərəcədə artırılması üçün DSMF-nin büdcəsinin gəlir və xərclərinin 200 milyon manat olması nəzərdə tutulub.

Diqqətə çatdırılıb ki, ölkədə minimum əməkhaqqı və büdcədən maliyyələşən təşkilatlarda çalışanların əməkhaqqı üzrə cari ilin aprel-may aylarında tətbiq olunmuş və sentyabrdan nəzərdə tutulan əlavə artımlar hesabına dövlət sosial sığorta haqları üzrə təxminən 350 milyon manat vəsaitin daxil olacağı proqnozlaşdırılır ki, həmin vəsaitin də 172 milyon manatı dövlət büdcəsindən maliyyələşən təşkilatların payına düşəcək.

Hesablama Palatasının sədri Vüqar Gülməmmədov deyib ki, Prezident İlham Əliyev tərəfindən əhalinin sosial rifahının yaxşılaşdırılması üçün inqilabi addımlar atılır. Bu ili sosial müdafiə ili kimi də dəyərləndirmək olar. İmzalanan sərəncamlar sosial həssas qruplarla yanaşı, ümumilikdə ölkə əhalisinin rifahının yüksəldilməsinə yönəlib.

Vüqar Gülməmmədov qeyd edib ki, "Azərbaycan Respublikasının 2019-cu il dövlət büdcəsi haqqında" qanun layihəsindən də göründüyü kimi, Sosial Müdafiə Fondunun büdcəsi 2019-cu ildə 200 milyon manat artırılır. Bu artırılma nəticəsində Fondun dövlət büdcəsindən asılılığının 38,3 faizdən 32,8 faizə düşməsi gözlənilir.

İclasda, həmçinin Vergi Məcəlləsində, "Dövlət satınalmaları haqqında", "Avtomobil nəqliyyatı haqqında" qanunlara dəyişiklik edilməsi haqqında qanun layihələri də müzakirə olunub. Qanun layihələri Milli Məclisin plenar iclasına tövsiyə olunub.

# Xarici məkrli dairələr müxalifəti alçaldır

***AXCP və Müsavat kimi partiyaların fəaliyyətləri, ümumiyyətlə, mövcud deyil. Bu baxımdan, onlar daha çox fəaliyyətlərini sosial şəbəkələrdə şər və böhtan xarakterli məlumatlar yaymaqla, diqqəti özlərinə cəlb etməyə çalışırlar. Söhbət etdiyimiz müsahiblərimiz ictimai rəyin dəstəyindən məhrum olan müxalifətin dağıdıcı qanadının maddi və mənəvi yardım almaq üçün ümidini xarici anti-Azərbaycan dairələrə bağladıqlarını bildirdilər.***



### Mətbuat Şurasının sədr müavini Müşfiq Ələsgərli: "Müxalifət antimilli qüvvələrin əlaltısıdır"

- Müxalifət dərk edəndə ki, onlar cəmiyyət tərəfindən qəbul edilmirlər, başladılar xarici maraqlı dairələrlə iş birliyi qurmağa. Bir insan ki, 26-27 ildir müxalifətdə oturur və heç bir faktiki fayda verə bilmir o zaman cəmiyyətin ondan üz döndərməsi təbii bir haldır. İndi onlar sosial şəbəkə üzərindən fəaliyyət göstərirlər. Amma demək olmaz ki, onlar sosial şəbəkədə hansısa nəticələr əldə ediblər. İnternet izləyiciləri onların son çıxışlarına baxsalar, görərlər ki, Əli Kərimli, Arif Hacılı və digərləri az qalırlar insanlara yalvarsınlar ki, bizim danışdıqlarımızı, yazdıqlarımızı layk edin, paylaşın. Onlar bu müraciəti nəyə görə edirlər? Çünki onları heç kəs dəstəkləmir, onların paylaşdıqlarına heç kəs baxmır. Bu da, onu göstərir ki, onların sosial şəbəkələrdə dayağı yoxdur və auditoriyanı itirə-itirə gedirlər. Bu baxımdan, hər hansı bir nəticə qazanacaqlarını, ciddi bir dəstək alacaqlarını gözləmirəm. Atalar misalı var: deyir suda boğulan, saman çöpünə də əl atır. Bunlar da boğulmaq, silinmək üzrə olduqlarına görə, hər vasitəyə əl atırlar. Həmin vasitələrdən biri də sosial şəbəkələr və onlar üzərindən yaydıqları təhqir, şər və böhtan xarakterli mənasız fikirlərdir. Demək olar ki, bu da onların son çabalarıdır, təbii ki, sosial şəbəkələrdə də heç bir dəstək qazanmayacaqlar. Çünki Azərbaycan cəmiyyətinin konkret mövqeyi var. Müxalifət antimilli qüvvələrin əlaltısıdır.

### Prezident Yanında QHT-lərə Dövlət Dəstəyi Şurasının üzvü, SİM İB-nin sədri Anar Xəlilov: "Müxalifət sosial şəbəkələrdə üzləşdiyi iflas göz qabağındadır"

- Adları çəkilən insanların cəmiyyətdə və xalq arasında dayaqları sıfıra bərabərdir. Məhz bu səbəbdən də, onların xalq arasında açıq şəkildə fəaliyyət aparmalarının mənasız olduğunu dərk etdiklərindən ümidlərini xarici qüvvələrə bağlayıblar. Bu baxımdan, ağılları və düşüncələri olsa, məkrli əməllərdən və planlardan əl çəkərlər. Demək olar ki, bu gün bunların ətrafında ancaq öz yaxınları və qohum-əqrəbalarıdır. Müxalifət düşərgəsini təmsil edən şəxslərin xalq tərəfindən dəstəyi yoxdur. Belə olan halda da, adları çəkilən qüvvələr öz mövcudluqlarını saxlamaqdan ötrü, "mən də varam" prinsipi ilə sosial şəbəkələrdən istifadə edirlər. Sanki sosial şəbəkələr bunlara bir növ mövcudluqlarını saxlamaq üçün bir nəfəslikdir. Onların işləri-peşələri, sosial şəbəkələrdə şər və böhtan xarakterli məlumatlar yaymaqla, məşğul olmaqdır. Təbii ki, onların bu planları baş tutmur. Artıq hər kəs müxalifətin kim olduğunu müxalifətin özündən də yaxşı bilir. Əminliklə deyə bilərəm ki, müxalifətin sosial şəbəkələrdə apardığı hay-küy kampaniyası iflasa uğrayacaq. Daha doğrusu, artıq müxalifət sosial şəbəkələrdə üzləşdiyi iflas göz qabağındadır və onların heç bir uğurlarından söhbət gedə bilməz.



### "Həftə İçi" qəzetinin baş redaktoru Sevinc Seyidova: "Radikal siyasi kəsimə dəstək sıfıra enib"

- Ölkəmizdə internet istifadəçilərinin sayı durmadan artır. Həmçinin, Azərbaycanda istənilən şəxsin sosial şəbəkələrdən istifadəsinə heç bir məhdudiyyət tətbiq edilmir. Vətəndaşların bütün hüquq və azadlıqları tam şəkildə təmin olunur. Lakin təəssüf ki, bu hüquq və azadlıqlardan dövlətinə və xalqına qarşı istifadə edən qüvvələr də mövcuddur. Özlərini ictimai-siyasi həyatda doğrulda bilməyən bir sıra qüvvələr unudulmamaqı üçün sosial şəbəkələrin yaratdığı imkanlardan öz məqsədləri üçün istifadə edirlər. AXCP və Müsavat kimi partiyaların, uzun illər ərzində, ölkənin inkişafı naminə hansısa proqram və təşəbbüs irəli sürə bilməmələri fonunda, son bir ildə ölkə rəhbərliyi tərəfindən bir çox sosial layihələrə imza atıldı. Əvvəlki illərdə əldə olunmuş nailiyyətləri nəzərə almasaq belə, 2019-cu il tarixə inqilabi sosial islahatlar ili kimi düşəcək.



Vətəndaşların maddi rifah halının yüksəldilməsi, sosial təminatının gücləndirilməsi istiqamətində imzalanan fərman və sərəncamlar xalq-iqtidar birliyinin təməlini daha da möhkəmləndirib. Cəmiyyətimizdə radikal siyasi kəsimə olan dəstək, demək olar ki, sıfıra enib. Bütün bunların fonunda isə, xaricdən aldıqları dəstəyin kəsiləcəyi qorxusuna düşən həmin qüvvələr, sosial şəbəkələrə üz tuturlar. Bu birliyi sarsıtmağa, ölkədə hərcmərclik yaradaraq, yenidən pafoslu çıxışlarla gündəmə gəlməyə səy göstərirlər. Bu səbəbdən, sosial şəbəkədən istifadə edən vətəndaşlarımız yayılan informasiyaların dəqiqliyinə və mənbəyinə xüsusi diqqət verməlidir.

***GÜLYANƏ***

# MULTİKULTRALİZMƏ VƏ DİALOQ FƏLSƏFƏSİNƏ HƏSR OLUNMUŞ DƏYƏRLİ KİTAB

Azərbaycan AMEA Fəlsəfə İnstitutunun fəlsəfə elmləri doktoru Xatirə xanım Quliyevanın rəhbərlik etdiyi "Multikultralizm və tolerantlıq fəlsəfəsi" şöbəsi bu gün də aktuallığını qoruyub- saxlayan bir mövzunu, alim kollektivi olaraq, tədqiq etmiş və kitab ("İdentiklik. Multikulturalizm. Dialoq fəlsəfəsi) şəklində çap etdirmişdir.

Kitaba ön sözü akademik İsa Həbibbəyli yazmışdır. İ.Həbibbəyli multikulturalizmin Azərbaycan modelinin qaynaqları, nümunələri və modeli haqqında ətraflı bəhs edərək, göstərir ki, "Azərbaycan XXI əsrin mühüm çağırışlarından olan multikultralizmin dünyadakı əsas mərkəzlərindən biridir. Multikultralizm və tolerantlığın bərqərar edilməsi Azərbaycanın müasir dövrdəki hərtərəfli və sürətli inkişafına təkan verir, gələcək inkişaf yollarına gur işıq salır."

Kitabda tədqiqatçılar "Azərbaycanda multikultralizmin daxili mikrostrukturu və tarixi köklərini" (Hikmət Babaoğlu), problemin elmi-metodoloji aspektlərini (Xatirə Quliyeva), Heydər Əliyev, azərbaycançılıq, ideologiya və dini tolerantlıq ideyalarını (Eynulla Mədətli, Sakit Hüseynov), klassik ədəbi iradə və orta əsrlər qaynaqlarında multikultralizm məsələlərini, qloballaşma, azərbaycançılıq, mədəniyyətlərin dialoqu, tolerantlıq, multikulturalizmin qarşılıqlı münasibətləri (N.Məmmədli, N.Quliyeva, İ.Vəliyev, Ə.Tağıyev, Ə.Kərimov və s.). Cənubi Azərbaycanda dini maarifçilik və multikultralizmin qaynaqları, Azərbaycan multikultralizm modelinin tarixi, ənənəsi və müasir vəziyyəti (Z.Fərzəliyev, Ə.Fərhadov) hərtərəfli araşdırılmışdır.

Kitabda Türkiyə tədqiqatçıları Hakan Yılmaz, Ayşegul Yılmaz multikultralizm və tolerantlığı tarixi-mədəni fenomen kimi tədqiq etmişlər. Dr. Taşkın İşgören dahi Azərbaycan bəstəkarı Üzeyir Hacıbəyovun sənət və fikir dünyasında tolerantlığın qaynaqlarını tədqiqata cəlb etmişdir. Ukraynalı İrina Kovalçuk Şərq və Ukraynanın sənət dünyasındakı tolerant dəyərləri müqayisəli təhlil etmişdir.

Kitabın dəyərli cəhətlərindən biri Ulu Öndər Heydər Əliyev və dövlət başçısı İlham Əliyevin Azərbaycan multikultralizminə verdikləri töhfənin tədqiq olunmasıdır. Bu baxımdan, kitaba ön sözü yazmış akademik İsa Həbibbəylinin qeyd etdiyi kimi, hazırda Azərbaycan cəmiyyətində müxtəlif xalqların nümayəndələrinin vahid ailədə dinc və yanaşı yaşayıb-işləmələri ölkəmizin əsas mənəvi sərvətlərindən biridir. Azərbaycandakı möhkəm multikultural əsaslara olan tolerant mühit müasir inkişafın əsas göstəricilərindəndir. Bütün bunlara görə, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, haqlı olaraq, multikultralizmi ölkəmizdə "normal həyat tərzi" kimi yüksək qiymətləndirir və həmin istiqamətdə inkişafa dövlət səviyyəsində böyük dəstək verir. Bu mənada, Azərbaycan Respublikasının müasir dövrdə multikultralizmə münasibətdə mövcud həyatın reallıqları ilə aparılan məqsədyönlü dövlət siyasəti bir-birini tamamlayır. Əsası Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyev tərəfindən qoyulmuş azərbaycançılıq ideologiyası özündə ölkədəki bütün xalqların və etnik qrupların birliyini və həmrəyliyini ehtiva edir. Görkəmli dövlət xadimi Heydər Əliyevin "Hamımızın bir Vətəni var. Bu, - Azərbaycandır" təlimi ölkəmizdə birlik və həmrəyliyin və millətlərarası münasibətlərin əsasında dayanır. Ölkədə yaşayan bütün xalqları onların hamısının eyni dərəcədə inandığı və hörmət etdiyi vahid ideologiya - azərbaycançılıq ideologiyası ətrafında birləşdirmək, müstəqil Azərbaycan dövlətinin mühüm nailiyyətidir. Bu müdrik siyasət Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tərəfindən yaradıcılıqla və ardıcıllıqla davam etdirilir. Azərbaycandakı sabit və dinamik həyat, inkişaf edən cəmiyyət həmin siyasətin konkret əməli nəticəsidir. Prezident İlham Əliyevin 2016-cı ili "Multikultralizm İli" elan etməsi və il ərzində bu istiqamətdə həyata keçirilən məqsədyönlü siyasi-ideoloji və ədəbi-mədəni tədbirlər Azərbaycan Respublikasında multikultural dəyərlərin daha da inkişaf etdirilməsinə və tolerantlıq mühitinin möhkəmləndirilməsinə xidmət edir.

Müasir dövrdə Azərbaycan Respublikası dünyada mədəniyyətlər və dinlərarası münasibətlərin dialoquna və harmoniyasına ən bariz nümunədir. Birləşmiş Millətlər Təşkilatının Sivilizasiyalararası Alyansının VII Qlobal

Forumunun 29-30 aprel 2016-cı il tarixdə Bakı şəhərində keçirilməsi Azərbaycan Respublikasının həmin istiqamətdə dünyadakı




ən örnək dövlətlərdən biri olduğunu təsdiq edir. Ölkəmizdə bu istiqamətdə, ardıcıl olaraq, keçirilən beynəlxalq səviyyəli mədəniyyət tədbirləri, aparılan müzakirələr, çıxarılan nəticələr qlobal və regional miqyasda yeni inkişafa təkan verəcək ideyaların daha da genişlənməsinə böyük töhfələr verir.

Prezident İlham Əliyevin, haqlı olaraq dediyi kimi, "Azərbaycan nümunəsi göstərir ki, multikulturalizm yaşayır. Baxmayaraq, bəzi siyasətçilər deyirlər ki, multikulturalizm iflasa uğrayıb. Bəlkə hardasa iflasa uğrayıb, amma Azərbaycanda yaşayır və bu meyillər, bu ideyalar güclənir, ictimayyətdən də daha çox dəstək alır".

***Vahid Ömərov,***
***AMEA Qafqazşünaslıq İnstitutunun Gürcüstanşünaslıq şöbəsinin müdiri, fəlsəfə üzrə fəlsəfə doktoru, dosent***

# Psixi sağlamlıq hüququnun müdafiəsini təmin edən sistem

***Köhnə Sovet modelinə əsaslanmış Azərbaycan Respublikasının psixi sağlamlıq sisteminə təşkilati yanaşma, həddən artıq mərkəzləşmiş xidmətlər, psixiatriya müəssisələrinin ümumi səhiyyə sistemindən və digər sektorlardan (sosial təminat, mənzil-kommunal xidmətləri, təhsil sistemi, ədliyyə sistemi və s.) təcrid edilməsi ilə xarakterizə olunur. İxtisaslaşmış tibbi xidmət səviyyəsində, demək olar ki, bütün növ xidmətlərdən istifadə imkanı vardır, lakin ilkin səhiyyə səviyyəsində psixi sağlamlıq xidmətləri zəif inkişaf etmişdir. Psixiatriya xidmətlərinin göstərilməsi, başlıca olaraq, poliklinikalarda çalışan psixiatrlar, PND-lər və psixiatriya xəstəxanalarının üzərinə düşür. 50-150 min əhaliyə xidmət edən hər bir administrativ bölgə poliklinikasında psixiatr ştatı vardır.***

Bu psixiatrlar, xidmət dairəsi 300000 - 600000 nəfər əhalini əhatə edən bölgələrarası PND-lərin tabeliyində fəaliyyət göstərirlər. PND-lərin çoxunda həm ambulator, həm də stasionar tibbi xidmətlər göstərilir, stasionar müalicəsi, həmçinin, psixiatriya xəstəxanalarında aparılır. Bundan başqa, ölkənin üç böyük şəhərində Təcili Tibbi Yardım xidməti tərkibində bütün sutka ərzində fəaliyyət göstərən mobil psixiatriya qrupları vardır. 2001-ci ildə Milli Məclis tərəfindən qəbul edilmiş Psixi Sağlamlıq haqqında Qanun, tam informasiyaya əsaslanmış razılıq, anonimlik və gizlilik, məcburi yerləşdirmə və müalicə (yalnız məhkəmə qərarından sonra), o cümlədən, psixi xəstəliyi olan şəxslərin himayəsi və hüquqlarının qorunması ilə bağlı məsələləri tənzimləyir. Buna baxmayaraq, psixiatriya üzrə mütəxəssislər, hüquqşünaslar və pasiyentlər (həmçinin, onların ailə üzvləri) arasında qanunvericilik normaları haqqında məlumatlılıq vardır. Eyni zamanda, qanunun yerinə yetirilmə reqlamenti və onun tətbiqi mexanizmləri dəqiq işləyir və psixi xəstəliyi olan şəxslərin hüquqlarının qorunması üçün məsuliyyət daşıyan nəzarətedici qurum vardır.

Ölkədə Milli Psixi Sağlamlıq Siyasəti və Psixi Sağlamlıq üzrə Strateji Plan tərtib edilmişdir, həmçinin, istehlakçılar siyasətin formalaşdırılması, planlaşdırılması və ya qiymətləndirilməsində iştirak etmək imkanı vardır. Psixi sağlamlıq üzrə informasiya sistemi psixiatrik epidemiologiya və statistika sahəsində etibarlı məlumatlar vardır, pasiyentlərin əksəriyyəti psixiatrik yardım üçün qeyri-rəsmi şəkildə müraciət edir və onlar bundan başqa, alınan bütün informasiyaların başlanğıc və ya orta mərhələlərini əks etdirən göstəricilərlə bağlıdır və nəticələrin qiymətləndirilməsi ilə bağlı məlumatlar toplanmışdır. 2005-ci ilin ikinci yarısında Səhiyyə Nazirliyində əhəmiyyətli dəyişikliklər baş vermişdir və yeni rəhbərlik ictimai səhiyyə sektorunda vəziyyəti qaydaya salmaqla bağlı işlərə başlamışdır. Görülən bu işlər psixi sağlamlıq sistemində islahatlar aparılması, o cümlədən, siyasətin işlənib-hazırlanması, xidmətlərin maliyyələşdirilməsinin artırılması, həddən artıq təşkilatlanmadan icmaya doğru yönəlmə, ilkin səhiyyə səviyyəsində icmaya əsaslanan



xidmətlərin göstərilməsi və peşə təhsilinin təkmilləşdirilməsi üçün imkanlar yaradır.

Azərbaycan Respublikasında psixi sağlamlıq sisteminin gücləndirilməsində növbəti addımlar aşağıdakı məqsədlərə yönəlməlidir: psixi sağlamlıq siyasəti və milli-strateji planın işlənib-hazırlanması. Bu siyasət və plana aşağıdakılar daxil edilməlidir:

- Gələcək psixi sağlamlıq sisteminin konsepsiyasının, prinsip və məqsədlərinin təsviri
- Strategiyaların, müddətlərin, fəaliyyət növlərinin, büdcənin, hədəf və məsuliyyətlərin müəyyən edilməsi
- İntihar hallarının qarşısının alınması, uşaqların psixi sağlamlığı, iş şəraitində stressin idarə olunması, zorakılığın azaldılması və s. üzrə xüsusi proqramların tərtib edilməsi
- Standartların və keyfiyyəti təmin edən proseduraların işlənib-hazırlanması
- Psixi sağlamlıq xidmətlərinin təşkilati strukturunun və idarə olunmasının təkmilləşdirilməsi
- Psixi sağlamlıq sistemində maliyyə resurslarının bölgüsünün təkmilləşdirilməsi

Ümumi təyinatlı xəstəxanalarda stasionar psixiatriya şöbələrinin yaradılması və mövcud icma yönümlü müəssisələrin gücləndirilməsi.

- Psixi sağlamlıq xidmətlərinin ümumi səhiyyə sisteminə inteqrasiya edilməsi
- Həddən artıq təşkilatlanmadan icmaya doğru yönəlmənin həyata keçirilməsi, buna paralel olaraq, alternativ xidmətlərin (böhran vəziyyətində müdaxilələr, reabilitasiya proqramı, sığınacaq tipli yaşayış və iş yerləri, evdə yardım, xəstəlik hallarının idarə olunması və s.) inkişaf etdirilməsi
- Xidmətlərin mərkəzləşməsinin aradan qaldırılması və yerli səhiyyə-psixi sağlamlıq xidmətlərinin səlahiyyətlərinin artırılması
- İstehlakçıların ehtiyac və tələblərini yerinə yetirən, icmaya əsaslanan müəssisələrin təsis edilməsi
- İlkin səhiyyə işçiləri üçün psixi sağlamlıq sahəsində təlimlərin artırılması
- İlkin səhiyyə işçiləri üçün psixi sağlamlıq üzrə təlim proqramlarının tərtib edilməsi
- İlkin səhiyyə praktikasında rəhbərliklər və müalicə protokollarının tətbiq edilməsi
- Psixiatriya mütəxəssisləri tərəfindən ilkin səhiyyə işçilərinə nəzarətin təmin edilməsi
- İlkin və ixtisaslaşmış tibbi yardım müəssisələri arasında qarşılıqlı göndərişlərə əsaslanan şəbəkənin yaradılması

Psixi sağlamlıq sisteminin kadr resurslarının artırılması (məs., sosial işçilər, psixoloqlar və s.)

- Təhsil sistemində kifayət miqdarda klinik-psixoloq, sosial işçi, peşə həkimi, psixiatriya üzrə tibb bacılarının hazırlanması
- Psixi sağlamlıq xidmətlərində müxtəlif ixtisaslı üzvlərdən ibarət qruplardan istifadə edilməsi
- Pasiyentlərin ailələrinin psixi sağlamlıq xidmətlərinin planlaşdırılması, təmin edilmə şəraiti və qiymətləndirilməsi prosesinə cəlb edilməsi
- Psixi sağlamlıq sahəsində çalışan idarəetmə işçilərinə, təlimatçılara və tədqiqatçılara təlimlərin keçilməsi
- Psixi sağlamlıq sahəsində davamlı tibbi təhsil üçün qısamüddətli treninqlər sisteminin tətbiq edilməsi
- Psixi sağlamlıq sisteminin digər əsas sektorlarla (məs., təhsil, sosial təminat, ədliyyə və s.) əlaqələrinin artırılması
- Psixi sağlamlıqla bağlı məsələlərin əhəmiyyətinin bu sahə ilə əlaqəli olan əsas təşkilatlar tərəfindən anlaşılmasına nail olmaq və onları psixi sağlamlıq siyasətinin yerinə yetirilməsi üzrə razılaşmaya qoşulmağa təşviq etmək
- Hər bir sektorda psixi sağlamlıqla bağlı məsələlərin əlaqələndirilməsi üçün məsuliyyət daşıyan nümayəndə təyin etmək
- Dövlət qurumlarının, beynəlxalq və qeyri-hökumət təşkilatlarının nümayəndələrinin iştirakı ilə psixi sağlamlıq üzrə Koordinasiya-Məsləhət Şurası təsis etmək və psixi sağlamlıq üzrə informasiya sisteminin təkmilləşdirilməsi.
- Psixi sağlamlıq üzrə informasiya sistemində qeydə alınacaq əsas göstəriciləri müəyyən etmək
- Psixi sağlamlıq üzrə məlumatların müntəzəm şəkildə toplanması, protokollaşdırılması, təhlil edilməsi və yayılmasını təmin etmək
- Təhsil sistemində klinik epidemiologiya və biostatistika üzrə mütəxəssislər hazırlamaq
- Görülmüş işlər və ya prosesin gedişi haqqında informasiyadan çox, nəticələrə diqqəti yönəltmək
- Psixi sağlamlıq üzrə elektron-məlumat bazası tərtib etmək.

***VAHİD Ömərov,***
***fəlsəfə üzrə fəlsəfə doktoru***




*Bu yazı Azərbaycan Respublikası Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyə dəstəyi ilə "İnsan hüquq və azadlıqlarının müdafiəsi, vətəndaşların hüquqi, siyasi mədəniyyət səviyyəsinin yüksəldilməsi, sosial və siyasi fəallığının artırılması" istiqaməti çərçivəsində hazırlanıb*

# Bu gün müxalifəti dağıdanlar Elçibəyə xəyanət edənlərdir

*Razi Nurullayev: "Zorla-güclə və çevrilişlə "demokratiya" gətirən, ya diktatorluq edəcək, ya da demokratiya adı altında ölkəyə xaos gətirəcək"*

***"Güman edirəm ki, "Yurd" sədri Əli Kərimlinin məqsədi istənilən yolla hakimiyyətə yiyələnməkdir. Bu isə, yolverilməzdir". Bu fikirləri alternativ AXCP-nin sədri, vaxtilə Ə.Kərimlinin müavini olmuş Razi Nurullayev partiyasına yaxın sayta müsahibəsində deyib.***



Onun sözlərinə görə, bu gün ağızdolusu demokratiyadan dəm vuran dağıdıcılar, bütün mənalada yanlış fikir yürüdürlər və onlar, sadəcə, demokratiya pərdəsi altında şəxsi mənfəətlərini, siyasi iddialarını önə çəkirlər. Bu isə, ümumiyyətlə, doğru seçim və normal siyasi yanaşma deyil. SİTAT: "Ağızdolusu danışdığımız demokratiyanı güc yolu ilə gətirmək və saxlamaq mümkün deyil. Zorla-güclə və çevrilişlə "demokratiya" gətirən, ya diktatorluq edəcək, ya da demokratiya adı altında ölkəyə xaos gətirəcək".

Alternativ cəbhəçi sədrinin dediyinə görə, bu gün özlərini hakimiyyətə iddialı kimi göstərənlər hakimiyyət qarşısında zəifdirlər, ona görə də, xaos xarakterli çağırışlar edir, icazəsiz mitinq və s. çağırışları edir, guya dəyişiklikləri seçkidən kənar vasitələrlə əldə edəcəklərini düşünürlər. Lakin fakt ortadadır və xalqın böyük əksəriyyəti ölkə başçısı İlham Əliyevi dəstəkləyir və seçkilərdə Ona səs verirlər: "Deyirlər ki, dəyişiklik seçkilər vasitəsilə mümkün deyil, seçkilər saxtalaşdırılır və xalqın iradəsini əks etdirmir. Bu fikirlə razılaşmıram. Çünki istənilən halda, Cənab İlham Əliyev daha çox səs toplayır".

### "Elçibəy hakimiyyətinə xəyanət edənlər, hələ də ortadadır"

Razi Nurullayev dağıdıcı təfəkkürə malik müxalifətin uğursuzluqlarının, məğlubiyyətlərinin səbəblərinin olduğunu deyib: "Səbəb isə müxalifətdaxili çəkişmələr, söyüşlər, bir-birinin ayağının altını qazması, müxalifət içində daxili demokratiyanın yerlə yeksan olması, hələ də müxalifətin fəaliyyətində hərc-mərcliyin hökm sürməsi, bunun 80-ci illərin sonu, 90-cı illərin əvvəllərində baş verən hadisələrə, bütünlüklə, bənzəməsi və Elçibəy hakimiyyətinə xəyanət edənlərin hələ də meydanda olmalarıdır".

Beləliklə, alternativ AXCP-nin sədrinin bu kimi məsələlərdə haqlı fikirlər söyləməsini inkar etmək olmaz. Çünki daha bir fakt ondadır ki, əgər bu gün haqqında danışılan həmin dağıdıcı şəxslər, zamanında öz liderlərinə belə xəyanət ediblərsə, bu gün isə onun bayrağı altında siyasi manipulyasiyalara yol verib, özlərini onun davamçıları kimi təqdim edirlərsə, sabah həmin adamlar xalqa və dövlətə qarşı daha ağır xəyanətlər törədə bilərlər. Ona görə də, xalq beləl追rinə ümid etməməklə yanaşı, həm də inanmır və siyasətlərini rədd edir.

**Rövşən RƏSULOV**

# Dağıdıcılar niyə öz yerlərində addımlayırlar?

*Onlar həmişə Azərbaycan xalqına deyil, hansısa maraqlı dövlətlərə və xaricdəki anti-Azərbaycan dairələrə ümid bəsləyirlər*



***Dağıdıcı müxalifətinin cilddən-cildə girərək dəyişdiyini, ermənilərlə əməkdaşlıq etdiyini, siyasi partiyaların kommersiya mərkəzinə çevrildiyini gözləri ilə görən heç bir kəs bu dəstənin ardınca getmir. Bu reallıq, həm də belə deməyə əsas verir ki, onların limiti tamamilə tükənib. Mövcud ictimai-siyasi vəziyyət, real faktlar isə, belə deməyə əsas verir ki, 30 ilə yaxın dövrdə müxalifətin ciddi bir iş görməməsinin başlıca səbəbi Müsavat partiyası ilə AXCP arasında münasibətlərin düşmənçilik prinsipinə söykənməsidir. Digər tərəfdən, son illərdə Azərbaycan müxalifətinin cilddən-cildə girərək dəyişdiyini, ermənilərlə əməkdaşlıq etdiyini, siyasi partiyaların kommersiya mərkəzinə çevrildiyini gözləri ilə görən heç bir kəs bu dəstənin ardınca getmir.***

Dağıdıcılar həmişə, Azərbaycan xalqına deyil, hansısa maraqlı dövlətlərə, xaricdəki anti-Aərbaycan dairələrə ümid bəsləyirlər. Belə ki, 1990-cı illərin əvvəlində AXC ölkənin qanunverici orqanında çoxluğu ələ almaq üçün 20 Yanvar faciəsindən də, 1992-ci ildə baş verən Xocalı soyqırımından da öz şəxsi maraqları üçün istifadə edirdi. Dəfələrlə 20 Yanvar hadisələrinə siyasi-hüquqi qiymət verilməsi tələbi ilə çıxış edən Azərbaycan Xalq Cəbhəsi hakimiyyətə gəldikdən sonra, nədənsə, bu mövzunu "unutmağa" başladı. Onlar hakimiyyətdə olduqları dövrdə faciəyə siyasi-hüquqi qiymət vermək üçün öz imkanlarından istifadə etmədilər. Bu faktın özü, artıq hər şeyi öz çılpaqlığı ilə ortaya qoymaqdadır.

Başqa tərəfdən, "Milli Şura" adlı ölü qurum da dağıdıcılıq proseslərində müəyyən rolunu alıb. Orada qısamüddətli maraqlar ətrafında birləşmiş dağıdıcı müxalifət içərisində parçalanmanı daha da dərinləşdirdi və marginal qruplaşma təsirini bağışlayan radikal müxalifət milli-siyasi proseslərdə antimilli ünsür kimi seytnot vəziyyətinə düşdü. Bununla belə, siyasi məkanda müşahidə etdiyimiz tendensiyalar radikal müxalifətlə bağlı digər nüansları da qabartdı və sosiuma təqdim etdi.

Bəlli oldu ki, dağıdıcı müxalifətin təfəkküründə hakimiyyətə qarşı ifratçılıq hökm sürür, onlar dövlətə və milli maraqlara qarşı durur. Həmçinin, onlar özlərini cəmiyyətə siyasi sistemin, siyasi institutların, demokratiyanın, siyasi mədəniyyətin və vətəndaş cəmiyyətinin inkişaf etdirilməsinə təkan verə biləcək qüvvə kimi deyil, sırf ölkəni xaosa sürükləməyə çalışan, ancaq xarici anti-azərbaycançı dairələrin siyasi direktivlərini həyata keçirən reneqatlar dəstəsi kimi göstərdilər. Hətta Azərbaycanda demokratik mühit formalaşsa da, radikal müxalifət sivil siyasi mübarizə qaydalarına riayət edən institutа çevrilmək əzmində olmadığını, mövcud olan insan hüquqlarının yüksək səviyyədə təminatı şəraitindən, plüarizmdən, demokratik siyasi sistem quruluşundan, xüsusilə də, söz, ifadə və sərbəst toplaşmaq azadlıqlarından sui-istifadə edərək, ölkəni antimilli qüvvələrin poliqonuna çevirməyə cəhd göstərdiyini isbatladı. "Fəaliyyətinin" əsasında milli maraqların deyil, korporativ mənafenin və marginal qrup davranışlarının durması da radikal müxalifətin demokratik dəyərlərin və ideyaların daşıyıcısı olmadığını ortaya qoydu.

Bütün bunlar isə, o əsası yaradır ki, xarici anti-Azərbaycan dairələrinin çirkin planlarının icraçısı kimi "beşinci kolon" rolunu alan, milli təfəkkür və düşüncə problemi yaşayan dağıdıcılar, heç bir halda, Azərbaycan cəmiyyətindən dəstək ala bilməyəcək. Azərbaycan dövlətinin hərtərəfli inkişafı ilə paralel siyasi şüur və siyasi mədəniyyət səviyyəsi də yüksələn cəmiyyətimiz dövlətçiliyə və milli maraqlara zidd addımlar atan, xarici siyasi qüvvələrin əlində təzyiq alətinə çevrilmiş destruktiv müxalifətin antimilli çağırışlarına da cavab verməyəcək.

**İ.ƏLİYEV**

# UNEC ABŞ-ın Linkoln Universiteti ilə ikili diplom proqramına başlayır




UNEC-in magistrləri ABŞ-ın Linkoln Universiteti ilə ikili diplom proqramı əsasında "Ümumi MBA" və "Beynəlxalq biznes" ixtisasları üzrə magistr diplomu əldə edə biləcəklər. UNEC-dən AZƏRTAC-a bildirilib ki, magistrlər təhsilin 1-ci ilinin payız, yaz və yay semestrlərini Linkoln Universitetində keçirəcəklər. Onlar Linkoln Universitetindəki 7 əsas və 2 seçmə fənni götürərək müvafiq şərtlər əsasında 4 + 4 + 1 və ya 4 + 3 + 2 üsulu ilə təhsil alacaqlar. Linkoln Universitetində təhsillərini davam etdirərkən, tələbələr öz tədqiqat layihəsi mövzusunu və rəhbərlərini seçəcəklər (birini Linkoln Universitetindən və digərini isə UNEC-dən).

Bu, birgə tədqiqat layihəsi olacaq. Tələbələr üçüncü və dördüncü semestrlərini tamamlamaq üçün UNEC-də fənlərin qalanını götürəcəklər. Tələbələr birgə tədqiqat layihəsini bitirəcək və UNEC-də müdafiə edəcəklər. Proqramı müvəffəqiyyətlə başa vuran tələbələr UNEC diplomu ilə yanaşı Linkoln Universitetinin diplomunu da əldə edəcəklər. Təhsil ingilis dilindədir. ABŞ-da təhsil müddətində magistrlər işləmək hüququ əldə edəcəklər.

# Siqaret və spirtli içkilərin qanunsuz yolla ölkəyə gətirilməsi cəhdinin qarşısı alınıb



Siqaret və spirtli içkilərin qanunsuz yolla ölkəyə gətirilməsi cəhdinin qarşısı alınıb. Dövlət Gömrük Komitəsinin Mətbuat və İctimaiyyətlə Əlaqələr İdarəsindən AZƏRTAC-a bildirilib ki, Qərb Ərazi Baş Gömrük İdarəsinin "Qırmızı Körpü" gömrük postunda Gürcüstandan gələn, Azərbaycan vətəndaşının idarə etdiyi "VAZ-21099" markalı avtomobil Əməliyyat və Təhqiqat İdarəsinə daxil olan məlumat əsasında saxlanılıb və sürücüsü şifahi sorğu-sual olunub. Sorğu-sual zamanı vətəndaş idarə etdiyi nəqliyyat vasitəsində gizlədilən və gömrük nəzarətinə mütləq bəyan edilməli hər hansı predmetin olmadığını bildirib. Daha sonra avtomobilə gömrük baxışı keçirilib. Nəticədə minik maşınının arxa və ön oturacaqların içərisində və yük yerində gizlədilən 2000 ədəd "Marlboro" markalı siqaret, hər biri 0,7 litr olan, üzərində "Çistıye Rosı" yazılan 15 ədəd spirtli içki aşkarlanıb. Faktla bağlı araşdırma aparılır.

# Uşaqların tibbi hüquqları

***Q.İ.Çareqorodçev və A.Y.İvanuşkinin fikrincə, pasiyentlərin hüquqları anlayışı müasir tibbi hüququn və müasir tibbi etikanın əsasını təşkil edir. Bu anlayışın "insan hüquqları"ndan törəmə olduğu aşkardır. İnsan hüquqları - təkcə insan olaraq, doğulması faktına görə hər bir insan fərdinə xas olan onun ayrılmaz və özgəninkiləşdirilməyən hüquqi andır.***

Məlum olduğu kimi, BMT-nin Ümumdünya İnsan Hüquqları Bəyannaməsinin qəbulundan sonrakı onilliklərdə insan hüquqları "İqtisadi, sosial və mədəni hüquqlar haqqında", həmçinin, "Mülki və siyasi hüquqlar haqqında" müvafiq aktlarda (bu iki sənəd birlikdə "İnsan hüquqları haqqında Xartiya" adlanır) konkretləşdirilmiş və ona əlavələr edilmisdir. Hüquq-müdafiə ideologiyasının inkişafında beynəlxalq birliyin, xüsusilə, həssas qrupların - etnik azlıqların, mühacirlərin, əlillərin, qadınların, uşaqların və s. hüquqlarının təmin olunması istəyi tam qanunauyğun olmuşdur.

1959-cu ildə BMT Baş Assambleyası "Uşaq Hüquqları Bəyannaməsi"ni, 1989-cu ildə isə "Uşaq Hüquqları haqqında Konvensiya"nı qəbul etmişdir. Dövlətimiz də adıçəkilən Konvensiyanı ratifikasiya etmişdir. Bu iki sənədi birlikdə çox zaman "Uşaq Hüquqları Xartiyası" adlandırırlar. Pasiyentlərin hüquqlarının təminatı, bu hüquqlara zəmanət, onların müdafiəsi ideologiyası, son 30 il ərzində, bioetika və müasir tibbi-hüquq məcrasında rəsmiləşir. Bu zaman pediatriyadan danışılarsa, "Uşaq Hüquqları Xartiyası"nın əksər prinsip və normaları uşaq-pasiyentin hüquqlarının təyin olunmasında konkretləşdirilmişdir (səhiyyə kimi sosial bir sahənin xüsusiyyətlərinin nəzərə alınması şərtilə).

Uşaqların sosial hüquqları - bu, yaşamaq və inkişaf etmək, təhsil, oyun, tibbi xidmət və mövcudluq üçün minimum zəruri vəsaitlər, zorakılıq və sərt rəftardan, iqtisadi və seksual istismardan müdafiə hüququdur. Çox vaxt, hətta prinsipdə də riayət olunmayan (qərar qəbul edilməsində iştirak etmək hüququ, ifadə azadlığı, vicdan və etiqad azadlığı, birləşmək azadlığı) mülki və siyasi hüquqlardan söhbət gedəndə, uşaqların həssaslığı daha qabarıq nəzərə çarpır. Səhiyyə kontekstində, "Uşaq Hüquqları Xartiyası"nın yuxarıda göstərilən müddəaları yaşama şərtsiz hörmət tibbi-etik prinsipində, "məlumatlandırılmış razılıq" doktrinasında və s. məntiqi inkişaf tapır.

"Uşaq Hüquqları Xartiyası"nın pediatriya praktikasını da, tənzimlədiyi əsas beynəlxalq hüquq sənədlərindən biri olduğunu nəzərə almaqla, onun hər şeydən öncə, Uşaq Hüquqları Konvensiyasını təşkil edən hissəsinin hüquqi statusu haqqında danışmaq lazımdır. Məsələ ondadır ki, beynəlxalq hüquq sənədləri kifayət qədər mürəkkəb struktura malikdir və əgər onları milli dövlətlər tərəfindən icra olunmaq üçün məcburilik dərəcəsinə görə yerləşdirsək, o zaman bunlar aşağıdakı kimi olacaq: Konvensiya və onların Protokolları, Direktivlər, Qətnamələr və Tövsiyələr. Beynəlxalq Konvensiyalar beynəlxalq hüququn əsas sənədlərindəndir və onları imzalayan və ratifikasiya edən dövlətlər üçün məcburidir. Belə ki, "Uşaq Hüquqları haqqında" Konvensiyaya riayət etmək öhdəliyi götürən üzv dövlətlər öz milli qanunvericiliklərini beynəlxalq tələblərə uyğunlaşdırmalıdırlar. Məsələn, əgər qüvvədə olan qanunların məzmunu, götürülən öhdəliklərə ziddirsə, onlar ləğv olunmalı və könüllü qəbul edilmiş beynəlxalq hüquq müddəalarını praktikada həyata keçirməyə imkan verən qanunvericilik aktları qəbul edilməlidir. Üzv dövlətlərin (madam ki, söhbət "Uşaq Hüquqları haqqında Konvensiya"dan gedirsə, deməli, BMT-nin üzvü olan dövlətlər) beynəlxalq məhkəmə orqanlarına iddia irəli sürmək imkanları haqqında məsələ müstəsna əhəmiyyət kəsb edir. Beynəlxalq Konvensiya hüququnun normaları ratifikasiyadan dərhal sonra qüvvəyə minir və vətəndaşın hüquqları pozulduğu hallarda, onun iddia irəli sürməsi üçün əsas ola bilər. Lakin əgər Konvensiyaya əsasən, hərəkətlərin yerinə yetirilməsi, o cümlədən, sosial hüquqların təmin edilməsi dövlətə həvalə edilərsə, onda ratifikasiya edilmiş beynəlxalq normalara istinad yalnız Konvensiyanın imzalanmasından sonra müvafiq milli qanunların qəbul edilməsi zamanı mümkündür.

Müasir tibbi etikanın prinsip, norma və standartları hər şeydən əvvəl Ümumdünya Tibb Assosiasiyasını (ÜTA) sənədlərində təsbit olunmuşdur. 1981-ci ildə təşkilat tərəfindən "Pasiyentlərin Hüquqları haqqında Lissabon Bəyannaməsi" qəbul edilmişdi. Sənədə əsasən, hər bir pasiyentin öz sağlamlığı haqqında tam məlumat aldıqdan sonra tibbi müdaxiləyə razılıq verməkvə ya ondan imtina etmək hüququ var. Sağalmaz xəstəliyə düçar olmuş pasiyent ləyaqətlə ölmək hüququna malikdir və s. 1995-ci ildə ÜTA "Pasiyentin Hüquqları haqqında Lissabon Bəyannaməsi"nin genişləndirilmiş redaksiyasını qəbul etdi. Burada pediatriyada məlumatlandırılmış razılıq konsepsiyasının aşağıdakı kimi ifadə olunduğu "Hüquqi cəhətdən yararsız pasiyentlər" fəslində göstərilir: "Yetkinlik yaşına çatmayanlarla bağlı" tibbi müdaxilənin həyata keçirilməsi üçün imkan daxilində pasiyentin səlahiyyətli nümayəndəsinin məlumatlandırılmış razılığı əldə olunmalıdır. Lakin pasiyent özü də öz imkanları çərçivəsində qərar qəbul edilməsində iştirak etməlidir.

Y.Makın qeyd etdiyinə görə, şəxsiyyətin muxtariyyətinə bioetik hörmət prinsipi layihəsi 1999-cu ildə ÜTA tərəfindən də dərc olunan "Uşaq-Pasiyentin Hüquqları haqqında Ottava Bəyannaməsi"ndə xüsusi Sənədin Preambulasında göstərilir: "Uşağın sağlamlığına evdə, yaxud xəstəxanada qayğı göstərilməsi müalicə prosesi ilə qarşılıqlı əlaqədə təsir edən və bir pasiyent kimi uşağın hüquqlarına xüsusi diqqət təbb edən tibbi, emosional, sosial və maliyyə aspektlərini əhatə edir". Elə burada da "uşaq" anlayışının tərifi verilir - bu, doğulandan həyatının on yeddinci ili tamam olana qədər olan insandır.

Ottava Bəyannaməsi layihəsinin əsas məzmununda, fikrimizcə, diqqətli yanaşma tələb edən normaları nəzərdən keçirək. Çünki onlarda müasir pediatriyanın bəzi mürəkkəb əxlaqi dilemmalarının həlli təcrübəsi təsbit olunmuşdur:

"Nadir" mürəkkəb müalicə üsulu göstərilən bu və ya digər uşaq-pasiyentə münasibətdə qərar qəbul etmək lazım gələndə, digər pasiyentlər əmin olmalıdırlar ki, onların hüquqları ədalətli seçim proseduru ilə təmin olunmuşdur və onların müalicəsi hansısa diskriminasiya olmadan, yalnız tibbi meyarlara əsaslanmaqla həyata keçiriləcək...

Uşaq-pasiyent və onun valideynlərinin... uşağın sağlamlığının qorunması ilə bağlı bütün qərarların qəbul edilməsində fəal məlumatlandırılmış şəkildə iştirak etmək hüququ var... Həkimin qərarına görə, artıq yetərincə yetkin olan uşaq öz sağlamlığının qorunması haqqında şəxsi fikrini bildirmək hüququna malikdir...

Əksər hallarda icazə (uşağın hansısa diaqnostika prosedurlarının və ya terapiyasının başlanmasından əvvəl) valideynlərdən alınmalıdır. Lakin əgər uşaq kifayət qədər yetkin və anlamlıdırsa, belə bir icazə uşağın özündən də alına bilər...

Uşaq-pasiyent və valideynləri onun vəziyyəti və tibbi şərait haqqında tam məlumat almaq hüququna malikdirlər. Göstərilən məlumat informasiyanı alanın mədəniyyətinə və anlamaq səviyyəsinə müvafiq şəkildə təqdim edilməlidir.

Əgər məlumatın uşağın həyatı və ya sağlamlığı üçün ciddi risk yaradacağını güman etməyə kifayət qədər əsas varsa, onda belə bir məlumat uşaq və onun valideynləri üçün bağlı ola bilər. Həkimlərin başlıca vəzifəsi sağlamlıq vəziyyəti, tibbi şərait, diaqnoz, proqnoz, müalicə haqqında məlumatların məxfiliyini təmin etməkdir. Bu tələb böyüklərlə müqayisədə uşaqlara qarşı daha diqqətlə yerinə yetirilməlidir. Valideynlərinin məsləhətlərinə ehtiyac duymamaq üçün kifayət qədər yetkin olan uşaq-pasiyent sirrin saxlanması və məxfi xidmət tələb etmək hüququna malikdir. Eyni zamanda, müstəsna hallarda həkimin məxfi məlumatı onun valideynlərinə söyləmək hüququ var. Lakin həkim bu cür hərəkətin səbəblərini əvvəlcə uşaqla müzakirə etməli və onu bu cür hərəkətin vacibliyinə inandırmağa çalışmalıdır.

Elə bir şərait yaradılmalıdır ki, uşağın valideynlərinə xəstəxananın daxilində və ya yaxınlığında pulsuz, yaxud ən aşağı ödənişlə yaşamaq üçün müvafiq otaq verməklə, onun valideynlərinin müşayiəti ilə ... xəstəxanada yerləşdirilməsi mümkün olsun. Xəstəxanada hər bir uşaq üçün daha çox kənar kontaktlara və ona baş çəkənlərə imkanlar yaradılmalıdır yalnız o hallardan başqa ki, əgər həkimin onun yanına gələnlərin yaxşı müalicəyə manne olduğunu, uşağın maraqlarına uyğun gəlmədiyini güman etmək üçün tutarlı səbəbləri varsa. Ölümcül xəstə uşağın ölümünü mümkün qədər ağrısız və ləyaqətli etmək üçün, o, müvafiq palliativ müalicə ilə təmin edilməlidir".

"Uşaq-Pasiyentin Hüquqları haqqında Ottava Bəyannaməsi" layihəsinin 4-cü bəndinə xüsusi diqqət yetirək: "Hər bir uşağın ləyaqətli yaşamaq, həmçinin, sağlamlığın təminatı üçün müvafiq vasitələr əldə etmək, xəstəliklərin qarşısının alınması, müalicəsi və reabilitasiya üzrə müstəsna hüququ var. Həkimlər və bütün tibbi heyət uşağın bu sahədə hüquqlarından xəbərsiz olmasına görə məsuliyyət daşıyırlar ..."

N.F.Gerasimenkonun fikrincə, hələ ki, ölkəmizdə, məsələn, Fransada olduğu kimi, "Tibbi Deontologiya (etika)" üzrə nüfuzlu milli məcəllə yoxdur. Fransa Həkimlər Assosiasiyası pediatrik aspektləri də (42-ci maddə) əhatə edən bu sənədi daim yeniləyir (əvvəlki redaksiya 1975-ci ildə qəbul edilmiş, sonuncu isə, 1995-ci ildə "Hökumət qəzeti"ndə dərc edilmişdir). Təəssüf ki, hazırda MDB-də, o cümlədən, Azərbaycanda və Rusiyada olan bir neçə həkim assosiasiyası yetərincə legitimliyə malik deyil.

Uşağı müalicə edərkən, həkim onun valideynlərinə, yaxud qəyyumlarına tam məlumat təqdim etməli, bu və ya digər müalicə metodu, yaxud dərman vasitəsini tətbiq etmək üçün onların razılıqlarını almalıdır. Lakin burada müasir tibbi etikanın mütləq tələbi nəzərə alınmır, yəni tibbi qərarların qəbul edilməsi prosesinə uşağın psixi imkanlarının imkan verdiyi qədər onun özünü də cəlb etmək.

**VAHİD ÖMƏROV,**
**fəlsəfə üzrə fəlsəfə doktoru**




*Bu yazı Azərbaycan Respublikası Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyə dəstəyi ilə "İnsan hüquq və azadlıqlarının müdafiəsi, vətəndaşların hüquqi, siyasi mədəniyyət səviyyəsinin yüksəldilməsi, sosial və siyasi fəallığının artırılması" istiqaməti çərçivəsində hazırlanıb*




# UNEC ilə "Azərbaycan Sənaye Korporasiyası" ASC arasında memorandum imzalanıb

***Azərbaycan Dövlət İqtisad Universiteti (UNEC) ilə "Azərbaycan Sənaye Korporasiyası" ASC arasında təhsil, elm və təlim-tədris sahəsində əməkdaşlığa dair Anlaşma Memorandumu imzalanıb. İmzalanma mərasimində UNEC-in rektoru, professor Ədalət Muradov, "Azərbaycan Sənaye Korporasiyası" ASC Kamran Nəbizadə, universitetin professor-müəllim heyəti və korporasiyanın nümayəndələri iştirak edib.***

Rektor Ədalət Muradov bildirib ki, "Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası"nda elmi-texnoloji tərəqqi, innovasiyalar və modernləşmə nəticəsində praktiki bilik və vərdişlərlə zənginləşməyən, sırf nəzəri xarakter daşıyan təhsil öz fundamental əhəmiyyətini itirməkdədir. Bu baxımdan təhsilin məzmununun formalaşmasında akademik biliklərlə yanaşı, praktik bilik və bacarıqların, səriştənin vacibliyi önə çəkilir. Bu isə təhsil prosesini real iqtisadiyyatın tələblərinə uyğunlaşdırılmağı tələb edir. Rektor bu istiqamətdə UNEC-də həyata keçirilən yeniliklərdən söz açıb, universitetin iş dünyası ilə strateji əməkdaşlıq platforması olan UNEC2B və job.unec.edu.az virtual əmək birjasının əhəmiyyətindən danışıb. Universitetin bir çox nüfuzlu şirkət və holdinqlərlə əməkdaşlıq etdiyini deyən Ə.Muradov "ASK" ASC ilə əməkdaşlığın mühüm məqamlarını da diqqətə çatdırıb. Bildirib ki, əməkdaşlıq çərçivəsində UNEC məzunları Azərbaycan Sənaye Korporasiyasının mütəxəssis bazasına daxil ediləcək, UNEC-in 3 tələbəsinə fərdi təqaüdlər təsis olunacaq. Eyni zamanda "ASK" ASC-nin əməkdaşları üçün UNEC-də ixtisasartırma kursları təşkil ediləcək.

"Azərbaycan Sənaye Korporasiyası" ASC-nin yaranma tarixi və hazırki fəaliyyətindən bəhs edən Korporasiyanın baş direktoru Kamran Nəbizadə qeyd edib ki, "ASK" ASC-in qarşısında duran əsas məqsədlərdən biri müəssisələrdə işin düzgün təşkili, rentabelliyi yüksəltmək, istehsalı genişləndirmək, müəssisələr arasında əməkdaşlığı gücləndirməkdir. İxtisaslı və peşəkar kadrlar bu məqsədlərin əldə edilməsində böyük rol oynayır. Korporasiyanın baş direktoru onu da bildirib ki, Memorandumun uğuru bu anlaşmanın ikitərəfli şəkildə fəal icrasından asılıdır.

Sonda rektor Ədalət Muradov və "ASK" ASC-nin sədri arasında əməkdaşlıq memorandumu imzalanıb. Sənədə əsasən, UNEC tələbələri "ASK" ASC və onun törəmə müəssisələrində təcrübə keçəcəklər, tələbələrin biznes ideyalarının formalaşdırılmasına, innovativ təşəbbüslərinə, startap fəaliyyətinə, onların praktiki tətbiqinə dəstək göstəriləcək. Ölkədə qeyri-neft sektorunun inkişaf etdirilməsi məqsədi ilə birgə tədqiqatlar aparılacaq, beynəlxalq təşkilatların və fondların qrant layihələrində birgə iştirak ediləcək, proqramlar həyata keçiriləcək. Eyni zamanda "ASK" ASC-nin mütəxəssisləri tələbələrin bakalavr buraxılış və magistrlik dissertasiyası işlərinə rəhbər, müxtəlif mövzular üzrə mühazirəçi qismində cəlb olunacaq. Memorandumda "dəyirmi masa"ların, konfransların, seminarların təşkil edilməsi, "yay məktəbləri"nin təşkili, "ASK" ASC və onun törəmə müəssisələrinin UNEC-in elmi-tədqiqat və tədris-metodiki strukturundan istifadəsi, tələbələrin arasında müsabiqələrin keçirilməsi, qaliblərin mükafatlandırılması və digər istiqamətlərdə əməkdaşlıq nəzərdə tutulub.

## ELAN

**ADPU-nun Fizikanın tədrisi metodikası və metodologiyası ixtisası üzrə magistri Musayeva Afət Qəzənfər qızının adına verilmiş magistr bileti itdiyi üçün etibarsız sayılır.**

səs

Son səhifə 22 iyun

# YAP Xocavənd rayon təşkilatı İmadəddin Nəsiminin anadan olmasının 650 illiyi münasibətilə bədii qiraət müsabiqəsi keçirilib





YAP Xocavənd rayon təşkilatında Azərbaycan ədəbiyyatında ictimai-fəlsəfi şeirləri ilə xüsusi yer tutan, klassik mütəfəkkir şair İmadəddin Nəsiminin anadan olmasının 650 illiyi münasibətilə bədii qiraət müsabiqəsi keçirilib.

Rayonun ümumtəhsil məktəblərinin yuxarı sinif şagirdləri arasında təşkil olunan müsabiqədə Nəsiminin şeirləri ifa olunub.

Gərgin keçən bədii qiraət müsabiqəsində münsiflər heyətinin yekdil qərarına əsasən, Xocavənd rayon Salakətin kənd tam orta məktəbinin X sinif şagirdi Sənəm Quliyeva I, Tuğ kənd tam orta məktəbin IX sinif şagirdi Samilə İsmayılova II, Salakətin kənd tam orta məktəbin XI sinif şagirdi Yaşar Məmmədov III yerə layiq görülüblər.

Müsabiqənin qalibləri hədiyyələrlə mükafatlandırılmış və Respublika Müsabiqəsində iştirak hüququ qazanmışlar.

**ZÜMRÜD**

# YAP Laçın rayon təşkilatı böyük Azərbaycan şairi İmadəddin Nəsiminin 650 illik yubileyinə həsr olunmuş tədbir keçirib



Dünən Ağcabədi rayonunun Taxta Körpü qəsəbəsində Yeni Azərbaycan Partiyasının Laçın rayon təşkilatının inzibati binasında böyük Azərbaycan şairi İmadəddin Nəsiminin 650 illik yubileyinə həsr olunmuş tədbir keçirilib.

Rayon ictimaiyyəti nümayəndələrinin iştirak etdiyi tədbiri giriş sözü ilə açan Yeni Azərbaycan Partiyasının Laçın rayon təşkilatının sədri İlqar İlyasov 2019-cu ilin "Nəsimi İli" elan edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 11 yanvar tarixli Sərəncamının tarixi əhəmiyyətindən danışaraq, bildirib ki, Azərbaycan xalqının çoxəsrlik ənənələrə malik bədii və fəlsəfi fikrində dərin iz qoymuş mütəfəkkir-şair İmadəddin Nəsiminin zəngin irsi bu gün də insanların mənəvi-əxlaqi kamilləşməsində mühüm əhəmiyyətə malikdir. Rayon təşkilatının sədri, eyni zamanda, bildirib ki, Laçın rayon təşkilatının təşkilatçılığı və rayonun ümumtəhsil məktəbləri və mədəniyyət müəssisələri ilə birlikdə ictimai-fəlsəfi şeirləri ilə Azərbaycan ədəbiyyatında xüsusi yer tutan, klassik mütəfəkkir, şair İmadəddin Nəsiminin anadan olmasının 650 illiyi münasibətilə rayonun ümumtəhsil məktəblərinin X və XI sinif şagirdləri arasında bədii qiraət müsabiqəsi keçirilib. Münsiflər heyəti tərəfindən müsabiqə iştirakçılarının qiymətləndirilməsi aparılaraq, üçüncü, ikinci və birinci yerlərin qalibləri müəyyənləşdirilib. Tədbirdə böyük Azərbaycan şairi İmadəddin Nəsiminin 650 illik yubileyinə həsr olunmuş bədii qiraət müsabiqəsinin qaliblərinə Yeni Azərbaycan Partiyasının Laçın rayon təşkilatının Fəxri Fərmanları təqdim olunub.

**NƏZAKƏT**

*Baş redaktor:*
**Bəhruz Quliyev**
*Baş redaktorun müavinləri:*
**Valeh Məhərrəmli**
**Fətulla Həsənov**

**Ünvanımız: Bakı şəhəri, Üzeyir Hacıbəyov küçəsi, 66.**
**Şəhadətnamə:№ 022492**
**http://www.ses-news.az**
**http://www.sesqazeti.az**
**E-mail: ses@sia.az**
**Tel:598-33-90 Faks:493-11-62**

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

Qəzet "Səs"in komputer mərkəzində yığılır, səhifələnir.
"Azərbaycan" nəşriyyatında çap olunur
*Qəzetdə AzərTAc, SİA və AZADİNFORM informasiya agentliklərinin məlumatlarından istifadə olunur.*

**Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur**
**Tiraj: 4600**